# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 438 Aprel 2024



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



# AVROPA ÇEMPİONU – ÜLVİYYƏ FƏTƏLİYEVA!

Azərbaycan şahmatçısı Ülviyyə Fətəliyeva Yunanıstanın Rodos şəhərində keçirilən qadınlar arasında şəxsi Avropa çempionatının qalibidir. Qeyd edək ki, Avropa Şahmat İttifaqı tərəfindən qadınlar arasında şəxsi Avropa çempionatı 2000-ci ildən təşkil olunur. Ülviyyə Fətəliyeva qadınlar arasında şəxsi qitə çempionatında qızıl medal qazanan ilk azərbaycanlı şahmatçı kimi tarixə düşüb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Ülviyyə Fətəliyevanı təbrik edib: "Əziz Ülviyyə! Parlaq qələbə münasibətilə səni ürəkdən təbrik edirəm! Əməyinə və iradənə görə çox sağ ol! Səninlə fəxr edirəm! Azərbaycana Qələbələr yaraşır!"

Gənclər və idman naziri Fərid Qayıbov Ülviyyə Fətəliyevanı qəbul edib. Gənc idmançını böyük uğuru münasibətilə təbrik edən nazir onun Avropa çempionluğunun ölkəmizdə şahmat idman növünün inkişafına töhfə verəcəyinə inandığını bildirib.

Xəzər Universitetinin kollektivi də Ülviyyə Fətəliyevanı təbrik edir və ona daha yüksək uğurlar arzulayır.





# EUROPEAN CHAMPION - ULVIYYA FATALIYEVA!

Ulviyya Fataliyeva, a chess player from Azerbaijan, emerged victorious in the individual European women's championship hosted in Rhodes, Greece. Note that the European Chess Union has been organizing the individual European Championship among women since 2000. Ulviyya Fataliyeva went down in history as the first Azerbaijani chess player to win a gold medal in the individual continental championship among women.

Mehriban Aliyeva, Azerbaijan's First Vice-President, extended her congratulations to Ulviyya Fataliyeva on her official Instagram page, saying, "Dear Ulviyya! I warmly congratulate you on your outstanding victory! Thank you for your dedication and determination! I am proud of you! Azerbaijan deserves such triumphs!"

Minister of Youth and Sports, Farid Gayibov, received Ulviyya Fataliyeva and congratulated her on her remarkable achievement. Expressing his belief that her victory in the European championship will significantly contribute to the development of chess in Azerbaijan, the minister commended the young athlete for her accomplishment.

The staff of Khazar University extends their congratulations to Ulviyya Fataliyeva and wishes her even greater success in the future.



# İÇİNDƏKİLƏR

V "Məmməd Araz Poeziya günü"nə yekun vuruldu ........ 6
*Əli Bəbiroğlu.* Əsrin poeziyası, yaxud həyatın poetik fəlsəfəsi ........ 10
Azərbaycan 8-ci Beynəlxalq Psixologiya Konfransı ........ 12
Sumqayıtda tədbir: "Gənclər – Gələcəkdir" ........ 16
Türkiyəli professor Xəzər Universitetində ........ 19
Xarici professorun müəllimlər və tələbələr üçün seminarı ........ 20
Xəzər Universitetinə kitab hədiyyəsi ........ 22
Xəzər Universitetinin dissertantına fəlsəfə doktoru diplomu təqdim olunub ........ 23
Xəzər Universiteti iftar verdi ........ 24
"AIESEC" Azərbaycan şirkətinin 1-ci kurs tələbələri üçün infosessiyası ........ 25
Ömər Faiq Nemanzadəyə həsr olunan "Solmadı gülzarın, Faiq əfəndi" adlı tədbir ........ 26
"Azərbaycan Rektorlar Konfransının yaradılması" layihəsi çərçivəsində növbəti görüş ........ 28
*İbrahim Gülmalıyev.* Sabançı Universitetində bir semestr ........ 29
Dicle Universitetinin nümayəndələri Xəzər Universitetində ........ 30
Litva filmi "Son fürsət" Xəzər Universitetinin dəstəyi ilə nümayiş olunub ........ 31
Erciyes Universiteti ilə birlikdə Nano BioAnalitik Kimya Mərkəzinin açılış mərasimi və Anlaşma Memorandumunun imzalanması ........ 34
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ........ 36
*Hamlet İsaxanlı.* Şahmat ehtirası ........ 40
"Azeronline LTD" BM-ə yeni rəhbər təyin olunub ........ 47
"Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji silah kolleksiyası" mövzusunda seminar ........ 48
Vrotslav Universitetinin və Educons Universitetinin nümayəndələri "Xəzər"də ........ 50
Serbiyalı professor seminar keçirib ........ 52
Educons Universitetinin professorunun seminarı ........ 53
Neftçi Geoloqlar Cəmiyyətinin növbəti konfransı ........ 54
Dillər və ədəbiyyatlar departamentinin müəllimi Özbəkistanda ........ 56
Kahramanmaraş Sütçü İmam Universitetinin nümayəndə heyəti Xəzər Universitetində ........ 58
Siyasi elmlər və fəlsəfə departamentinin müdiri məktəblərdə təlim keçib ........ 60
"Xəzər"in əməkdaşları Erasmus+ layihəsi çərçivəsində Finlandiyanın Jyväskylä Universitetində ........ 62
"Dayanıqlı enerjidə qərar qəbuletmə yanaşmaları" mövzusunda beynəlxalq seminar ........ 64
"KPMG Azerbaijan" şirkətinin Audit Karyera günü keçirilib ........ 66
Molla Xəzər ........ 72

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Məsul katib:**
Valeh Mirzə

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində mətnlərin redaktoru:**
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

V "Mammed Araz Poetry Day" Wraps Up ........ 6
*Ali Babiroghlu.* The Poetry of the Century, or the Poetic Philosophy of Life (*in Azerbaijani*) .. 10
Azerbaijan 8th International Psychology Conference ........ 12
Event In Sumgayıt: "Youth is the Future" ........ 16
Turkish Professor at Khazar University ........ 19
Foreign Professor Hosts Seminar for Faculty and Students ........ 20
Book Gift to Khazar University ........ 22
Doctor of Philosophy Diploma Presented to Khazar University PhD Candidate ........ 23
Iftar Dinner at Khazar University ........ 24
AIESEC Azerbaijan Hosts Information Session for First-Year Students ........ 25
Event Dedicated to Omar Faig Nemanzade "Your flowers did not wither, Faig Effendi" ...... 26
Next Meeting within the "Establishment of the Azerbaijan Rectors' Conference" Project ... 28
*Ibrahim Gulmaliyev.* One Semester at Sabancı University ........ 29
Dicle University Representatives at Khazar University ........ 30
Lithuanian Film "Jump" Screened with Support of Khazar University ........ 31
Opening Ceremony of Nano BioAnalytical Chemistry Center with Erciyes University and MOU Signing ........ 34
News of the Institute of ANAS Named after Nizami (*in Azerbaijani*) ........ 36
*Hamlet Isakhanli.* Passion for Chess (*in Azerbaijani*) ........ 40
New Head Appointed to "Azeronline LTD" JV ........ 47
Seminar on "Archaeological Weapon Collection of the National Museum of Azerbaijan History" ........ 48
Representatives of Wroclaw University and Educons University at Khazar University ....... 50
Serbian Professor Conducts Seminar ........ 52
Professor of Educons University of Serbia Conducts Seminar ........ 53
Next Conference of Society of Petroleum Geologists ........ 54
Lecturer of Languages and Literatures Department in Uzbekistan ........ 56
Kahramanmarash Sutchu Imam University Delegation Visits Khazar University ........ 58
Head of Political Sciences and Philosophy Department Leads Training at Schools ........ 60
Khazar University Staff Members at Niversity of Jyväskylä, Finland, within Erasmus+ Project ........ 62
International Workshop on "Decision-Making Approaches in Sustainable Energy" ........ 64
Audit Career Day of "KPMG Azerbaijan" Company Held ........ 66
Molla Khazar (*Satirical Musings; in Azerbaijani*) ........ 72

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Editorial Secretary:** Valeh Mirza

**Photo**: Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova




# V “MƏMMƏD ARAZ POEZİYA GÜNÜ”NƏ YEKUN VURULDU

# V "MAMMED ARAZ POETRY DAY" WRAPS UP

Aprelin 22-də V “Məmməd Araz Poeziya günü” çərçivəsində şairin anadan olmasının 90 illiyi münasibətilə ötən il elan olunmuş respublika üzrə şeir müsabiqəsi qaliblərinin mükafatlandırma mərasimi keçirilib.






*Qardaşxan Əzizxanlı*

I Fəxri Xiyabanda şairin məzarını ziyarətlə başlayan və Xəzər Universitetində yekunlaşan tədbirə respublikanın ədəbiyyat, elm adamları, M. Araz şeirinin pərəstişkarları, şairin yaxınları və Xəzər Universitetinin müəllim - tələbə heyəti qatılıb.

Tədbir unudulmaz sənətkarın öz səsində “Ana torpaq, hər daşına üz qoyum” şeiri ilə başlayıb. Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova, “Məmməd Araz Poeziya günü” layihəsinin rəh-

On April 22, as part of the V "Mammed Araz Poetry Day", a ceremony was held to award the winners of the poetry contest across the republic, announced last year on the occasion of the poet's 90th birthday. Literary scholars, fans of Mammad Araz's poetry, relatives of the poet, as well as the university's faculty and students, participated in the poetry day held at Khazar University.

The event started with the poem " Mother Earth, let me look into the face of every stone " in the voice of the unforgettable poet. Head of the Department of Languages and Literatures of Khazar University Assoc. Prof. Dilbar Zeynalova,

bəri, Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru şair Qardaşxan Əzizxanlı, departamentin dosenti, tənqidçi-esseist Ülvi Babasoy çıxışlarında şairin yaradıcılığının əsas qayəsini yurdun azadlığı, müstəqilliyi və bölünməzliyi ideyasının, Bütöv Azərbaycan idealının təşkil etdiyini xüsusi vurğulayıblar.

Xəzər Universitetinin tələbələri Vəlixan Vəlixanlı, Əsiyyət Severxanova, Riad Səfərov, Xədicə Hüseynova şairin "Bir ömrün qonaqları" adlı pərdəsiz dram-zarafatını, Nurgül Umarlı "Palıd", Əsiyyət Severxanova "Məndən ötdü, qardaşıma dəydi", şeir ifası üzrə I və III "Məmməd Araz Poeziya günü"nün qalibi, Məmməd Araz adına "Qartal" mükafatı laureatı, Laçın rayonu 33 saylı orta məktəbin X sinif şagirdi İbrahim Əhmədov "Bu, insan adlanan insan" şeirlərini səsləndiriblər.



*Əlizadə Əsgərli* *Sevinc Elsevər*

Universitetin Humanitar, təhsil və sosial elmlər fakültəsinin filologiya ixtisası üzrə II kurs tələbələri Elmira Heydərova, Xoşbəxt Quliyeva, Fidan Bağırzadə və başqalarının "Hər tələbə bir misra" layihəsində M.Arazın "Məhəbbət körpümüz" şeirini söyləmələri maraqla qarşılanıb.

Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim Zülfiyyə Sadıqovanın pianoda müşayiəti ilə departamentin müəllimi Məhsəti Cabbarova ("Qızlar bulağı"), Təbiət elmləri və mühəndislik fakültəsinin tələbəsi Könül İbrahimova ("Bu torpağın, bu diyarın") və aşıq Ramin Karayev ("Əlvida, dağlar") şairin

*(Ardı səh. 8-də)*



*Aqil Abbas* *Əli Bəbiroğlu*

head of the project "Mammad Araz Poetry Day", lecturers of the Department - PhD in philology, poet Gardashkhan Azizkhanli, critic-essayist Assoc. Prof. Ulvi Babasoy emphasized that the main basis of the poet's creativity is the idea of freedom, independence and indivisibility of the country, the ideal of a whole Azerbaijan.

Khazar University students Valikhan Valikhanli, Asiyat Severkhanova, Riad Safarov, and Khadija Huseynova presented a poetical drama-comedy titled "Guests of a Lifetime", Nurgul Umarli performed "Oak", and Asiyat Severkhanova presented "He walked past me and hit my brother". Ibrahim Ahmadov, a 10th-grade student from Secondary School No. 33 in Lachin district, winner of the I and III "Mommed Araz Poetry Day" in

*(To be continued page 8 )*



*Dilbər Zeynalova* *Xalid Mahmud*




*Vəlixan Vəlixanlı, Xədicə Hüseynova, Riad Səfərov, Əsiyyət Severxanova,*

sözlərinə yazılmış  mahnıları ifa ediblər.

Sonra şeir üzrə respublika müsabiqəsinin qaliblərinin adları açıqlanıb. Əli Bəbiroğluna (I yer), Sevinc Elsevərə (II yer), Xalid Mahmuda (III yer) qalib diplomları təqdim olunub. Müsabiqədə uğurlu iştirakına görə şairə Mina Rəşid, tələbələrdən Zəhraxanım Məmmədova, Rəşid Nəsirzadə, Amin Səfərov diplomlarla təltif edilib.

Azərbaycan Milli Məclisinin deputatı, yazıçı Aqil Abbas Məmməd Araz yaradıcılığının Azər-

poetry performance, as well as the recipient of the "Eagle" award named after Mammad Araz, recited the poem ""This is the one called human"".

Second-year students majoring in philology at the School of Humanities, Education, and Social Sciences, including Elmira Heydarova, Khoshbakht Guliyeva, Fidan Bagyrzade, Sevinj Abdullayeva, Aydan Mustafayeva, Ilkana Hashimova, Parvana Maharramova, Guldana Akbarova, Hashima Aliyeva, Guler Durmuszade, Samira Khanlarova,



*Zülfiyyə Sadıqova*    *Könül İbrahimova*

baycan ədəbiyyatındakı rolundan danışıb, onun həqiqi milli düşüncəyə və yüksək vətəndaşlıq mövqeyinə malik olduğunu dilə gətirib. O bildirib ki, Məmməd Araz hər zaman həqiqət axtarışında olub, haqq işi uğrunda mübarizə aparıb. Böyük sənətkar Azərbaycan poeziyasının ən qüdrətli nümayəndələrindən biri kimi yaddaşlara köçüb. A.Abbas çıxışının sonunda tədbirin təşkilatçısı kimi Xəzər Universitetinin rəhbərliyinə öz minnətdarlığını bildirib.

Tədbir M.Arazın öz səsində "Salamat qal" şeiri ilə yekunlaşıb.

Tədbir haqqında AZƏRTAC və digər informasiya agentlikləri, saytlar xəbər yayımlayıb.



*Yeqzar Cəfərli* *Zəhraxanım Məmmədova*



*İbrahim Əhmədov*



*Nurgül Umarlı*

Rasima Mehtiyeva, Ayla Yusifova, Marjan Azizli, and Khumar Shirvanova, participated in the "Each Student One Verse" project, reciting M. Araz's poem "Our Love Bridge".

The songs written by the poet were performed by Mahsati Jabbarova, an instructor from Khazar University's Music and Art Department ("Girls Spring"),accompanied by the head of the department, honored teacher Zulfiyya Sadighova on the piano, Konul Ibrahimova, a student from the School of Science and Engineering ( "This Land, This Region"), and ashuq Ramin Karayev ("Goodbye, Mountains").

Then the names of the competition winners were announced. Winner diplomas were presented to Ali Babiroglu (1st place), Sevinj Elsever (2nd place) and Khalid Mahmud (3rd place). Poet Mina Rashid, students Zahrakhanim Mammadova, Rashid Nasirzade, Amin Safarov were also honored with diplomas for their successful participation in the contest.

Member of the Milli Majlis, writer Agil Abbas spoke about the role of his work in Azerbaijani literature and expressed that he has a true national thought and a high citizenship position. He said that Mammad Araz was always in search of the truth and fought for the right cause. The great poet is remembered as one of the most influential representatives of Azerbaijani poetry.

The event ended with Mammad Araz's poem "Good bye" in his own voice.

*https://azertag.az/xeber/v_memmed_araz_poeziya_gunune_yekun_vurulub-2974696 və s.*



# ƏSRİN POEZİYASI, YAXUD HƏYATIN POETİK FƏLSƏFƏSİ

*V "Məmməd Araz Poeziyası günü" çərçivəsində şairin 90 illiyi münasibətilə keçirilən respublika üzrə şeir müsabiqəsinin qaliblərinə diplomların təqdimetmə mərasimində etmədiyim çıxış*

Bir əsr bütövlükdə bir ömrü əhatə edir. Əsrin hər kəsə görə dəyişən nisbiliyi vardır. Kiminin ömür-tale əsri bir il, kiminin tale – yaradıcılıq əsri min illərə gedib çıxa bilir. Dünyanın bir çox eraları vardır: kitab erası, döyüş erası, qədim dövrlər erası, ən yeni tarix erası, Müstəqil Azərbaycan dövrü erası, Məmməd Araz erası və bir də var, Hamlet İsaxanlı erası. Şair- tərcüməçi, jurnalist-redaktor, müəllim-alim Qardaşxan demişkən: "başlandı bizim era".

Xəzər Universitetinin yaradılması hörmətli Prof. Hamlet İsaxanlının iradəsinin ortalığa qoyduğu ən görkəmli ideyalarından biridir. Bu münasibət yazısında "ən", "daha", "lap" ədatlarından istifadə etmək istəməzdim, çünki Hamlet müəllimin həyat və yaradıcılığında bu "ən"lərin, "daha"ların sayı-hesabı onlarla, yüzlərlədir. Belə deyirlər ki, hər bir yaradıcı nisbətən özünü yazır, özünü yenidən yaradır. Hamlet müəllimin özünə oxşayan, özü kimi səmimi olan Xəzər Universitetinin müəllim və tələbə kontingenti bu fikri çox gözəl təsdiqlədi.

Əslində, həyatın poeziyası həmişə öndədi, lakin olur ki, insan onu fəlsəfəyə dəyişir. İnsanlar bu ilahi qanunu – ömrün poeziyasını – bilərəkdən, ya bilməyərəkdən həyatda qarşılaşdığı həyatın çılpaq, aksiom həqiqətlərinə dəyişməli olurlar, dahi Füzuli demiş: "Fe`ldir əsli-rizayi həq, nə kim əslü nəsəb; Xaki - fərmanbər bəşər, asi mələk şeytan olur". Deməli, həyatda Allahın iradəsinin də öz həqiqətləri vardır.

İstisnasız olaraq bütün insanlar poeziyadan keçirlər, sonradan həkim, mühəndis, sürücü olurlar. Ömrü boyu poeziyada qalanların qismətinə şeir özü qayıdır. Poeziya nifrətdən daha əvvəl sevgi, istək və məhəbbətdir, ona aşiq olub vuruluruq və bu adla ədəbiyyata gəlirik, amma illər keçdikcə daha çox onun poetik fəlsəfəsini sevməyə başlayırıq.

Şopenhauer yazırdı: "Nədən desən yazmaq olar, təki iradə göstərib ortalığa ideya qoya biləsən". Azərbaycan şeirinin Şopenhaueri Məmməd Arazın poeziya günü çərçivəsində ke-

çirilən respublika üzrə şeir müsabiqəsi bu layihənin rəhbəri – Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, şair Qardaşxan Əzizxanlının və sözsüz ki, Xəzər Universiteti kollektivinin iradəsi kimi ortalığa qoyulub. Keçirilən müsabiqə ilə bağlı əməyi və əməli keçən hamıya təçəkkür edirəm, xüsusilə, Dillər və ədəbiyyatlar departamentinin müdürü Dos.Dilbər Zeynalova və Dillər və ədəbiyyatlar departamentinin dosenti tənqidçi-esseist Ülvi Babasoy başda olmaqla hər kəsə. Əməyi ona görə ki, bu təşəbbüs və iradə ayların zəhməti və başqaları üzərində onların qoyduqları haqqdır, onun qiyməti ən azı münnətdarlıqdır, əməli ona görə ki, bu həm də maddiyyatdır.

**Əli Bəbiroğlu,**
*şeir müsabiqəsinin birincisi.*

# Bir dua pıçıldadım

Sənlə keçən günlərdən xatirə qucaqladım,
Dilim dil açdı sanki, dindi – danışdı birdən.
İçimə xatirədən bir dua pıçıldadım,
Qəlbim gül açdı, güldü, şeir yarandı qeybdən.

Səmavi bir münacat gəzir göyün üzündə,
Onu qarşılamaq da, qucaqlamaq da bizdən.
Əgər şeir oxunsa saf suların üzündə,
İnci qalmaz dənizdə, pəri çıxar dənizdən.

Hər şey göydə olacaq, az şey yerdə qalacaq,
Qələm çəkən ta çəkib, qələm tutan ha çəkir...
Əlim, ayağım burda, göy aralı duracaq,
Məni ruhuna götür, ruh göylərə çəkilir.

Dilimin sözlərinə ölçüdən hədd qoyulub,
Hər işimin payına hesab gəlir, say gəlir.
Saatın əqrəbi yox, ömrün vaxtı qurulub,
Bu ayı başa vurdum, sabah yeni ay gəlir.

İlahi, əlimi tut, əlimə xas xına çək.
Dilimi qarmağa sal, hülquma keçir barmaq.
Nəfsimə dəymə hələ, gözümü çarmıxa çək,
İlahi, duaçınam, zordu həsrətdə durmaq.

**Əli Bəbiroğlu**

# AZƏRBAYCAN 8-Cİ BEYNƏLXALQ PSİXOLOGİYA KONFRANSI
# AZERBAIJAN 8TH INTERNATIONAL PSYCHOLOGY CONFERENCE





*Mələk Kərimova*

Xəzər Universiteti Psixologiya departamenti və Xəzər Psixoloji Xidmət Mərkəzinin təşkilatçılığı ilə aprelin 26-27-də Xəzər Universitetində Azərbaycan 8-ci Beynəlxalq Psixologiya Konfransı keçirildi. Konfrans Xəzər Universiteti Kamera orkestrinin ifası ilə başlandı və Xəzər Multimedia Mərkəzinin hazırladığı – əvvəlki illərin konfranslarını əks etdirən videomaterial nümayiş etdirildi.

Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova departament və Xəzər

The 8th Azerbaijan International Psychology Conference was held at Khazar University on April 26-27, under the organization of the Khazar University Psychology Department and the Khazar Psychological Service Center. The opening was started by the orchestra of Khazar University. Video material prepared by the Khazar Multimedia Center and showcasing the conferences of previous years was shown to the attendees.

Malak Karimova, coordinator of the Khazar University Psychology Department, highlighted active





*Hamlet İsaxanlı*




*İradə Xəlilova*

Psixoloji Xidmət Mərkəzinin bu tip seminar, təlim və konfranslarda aktiv yer aldığını qeyd edərək, konfransın açılışı üçün sözü Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlıya verdi. O da öz növbəsində bir ənənə halını alan konfransın önəmini qeyd edərək, psixologiyanın elm sahəsi kimi inkişafda olduğunu söylədi. Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova çıxışında konfransın işinə uğurlar dilədi.

Psixologiya departamentinin koordinatoru Mələk Kərimova konfransa Britaniyadan dəvət edilmiş əsas spikerlər haqqında ətraflı məlumat verdi. Dedi ki, konfransa dünyanın məşhur psixoloqlarından biri, Britaniya Psixologiya Cəmiyyəti və Amerika Psixologiya Assosiasiyasının üzvü, 95 kitab və 1480-dən çox məqalə müəllifi Adrian Furnham, "Inclusion

*(Ardı səh.14-də)*




*Michele Moore*



*Adrian Furnham*

involvement of the department and the Khazar Psychological Service Center in such seminars, trainings and conferences, and gave the floor to Prof. Acad. Hamlet Isakhanli, founder and chairman of the Board of Directors and Trustees of Khazar University, to open the conference. He, expressed well wishes for the conference's continued success, emphasizing the evolving nature of psychology as a scientific discipline. Rector of Khazar University Assoc. Prof. Irada Khalilova Assoc. Prof. Irada Khalilova, the university's rector, underscored the significance of such gatherings and extended wishes for the conference's fruitful outcomes.

Malak Karimova, coordinator of the Psychology Department, gave detailed information about the keynote speakers invited to the conference from Britain. She mentioned Adrian Furnham, a renowned psychologist with affiliations to the British Psychological Society

*(To be continued page 14)*




*Müge Yüksel*

Childhood and Education Ltd (ICE)" şirkətinin təsisçi direktoru və "Əlillik və Cəmiyyət" jurnalının baş redaktoru Michele Moore, Marmara Universitetinin professorları Müge Yüksel, Azize Nilgün Canel, Durmuş Ümmet, Mersin Universitetinin professoru Cem Ali Gizir dəvət edilmişdir.

İki gün davam edən konfransda Prof. Adrian Furnham "Pul və Motivasiya" haqqında iştirakçılara təlim keçdi. Təlimdə gəlirin və maddi vəziyyətin insan psixologiyasına təsiri, həmçinin pul və motivasiya arasındakı əlaqədən danışıldı. Ardınca Prof. Michele Moore "Əlillik və ailədə yaşanan çətinliklər" mövzusu ətrafında ən son yenilikləri iştirakçılara çatdırdı. Prof. Cem Ali Gizir "Yaş terapiyası" mövzusundan bəhs etdi. Tədbirin davamında Prof. Azize Nilgün Canel "Metakoqnitiv yardım prosesi" barəsində iştirakçılara məlumat verdi. Konfrans Doç. Durmuş Ümmet'in "Psixi sağlamlıq mütəxəssislərində şəfqət yorğunluğu" mövzusunda nəzəri, "Seanslarda terapevtik kartların istifadə edilməsi" mövzusunda praktik çıxışı ilə yekunlaşdı.



*Durmuş Ümmet*

and the American Psychological Association, known for authoring 95 books and over 1480 articles. Additionally, Michele Moore, founding director of "Inclusion Childhood and Education Ltd (ICE)" and



*Azize Nilgün Canel*

editor-in-chief of "Disability and Society" journal, along with professors Muge Yuksel, Azize Nilgun Canel, Durmus Ummet from Marmara University, and professor Cem Ali Gizir from Mersin University were among the invited speakers.

During the conference, Prof. Adrian Furnham conducted a training session titled "Money and Motivation," delving into the psychological impact of income and financial status, as well as the interplay between money and motivation. Prof. Michele Moore provided the audience with the latest insights on "Disability and Family Challenges." Prof. Cem Ali Gizir discussed "Age Therapy," while Prof. Azize Nilgum Canel elaborated on the "Metacognitive Assistance Process." The event concluded with Assoc. Prof. Durmus Ummet delivering a theoretical discourse on "Compassion Fatigue in Mental Health Professionals" and a practical session on "Using Therapeutic Cards in Sessions."



*Cem Ali Gizir*

Konfransın ikinci gününün daha çox hissəsini praktiki tapşırıqlar əhatə edirdi. Prof. Adrian Furnham "Liderlerin uğursuzluqlarının səbəbləri" barəsində iştirakçılarla bərabər praktiki təlim keçdi. Prof. Michele Moore "Əlilliklə üzləşən ailələrdə çətinliklərlə işləmə metodları", Prof. Cem Ali Gizir "Yaş terapiyasında istifadə edilən metodlar", Prof. Azize Nilgün Canel "Həyat ağacı: Gücləndirmə əsaslı Narrativ terapiyanın tətbiqi", Prof. Müge Yüksel "Yaradıcı dramın tətbiqi" mövzuları barədə ətraflı müzakirələr aparmaqla yanaşı, onların tətbiqi qaydalarını da şərh etdilər.

Konfransdan sonra qonaqlarla axşam yeməyi təşkil edildi və gələcək əməkdaşlıq məsələləri müzakirə olundu. Sonda konfrans iştirakçılarına hədiyyə və sertifikatlar təqdim edildi və konfransa sponsorluq dəstəyi verən "Asterias" şirkətinə təşəkkür bildirildi.



*" Xəzər"in müəllimi Ülkər İsayeva, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Adrian Furnham*

The majority of the second day of the conference focused on practical exercises. Prof. Adrian Furnham facilitated a hands-on training session titled "Why Leaders Fail." Prof. Michele Moore discussed "Methods of Dealing with Difficulties in Families Facing Disabilities." Prof. Cem Ali Gizir explored "Methods Used in Age Therapy." Prof. Azize Nilgum Canel introduced "Tree of Life: Application of Empowerment-Based Narrative Therapy." Prof. Müge Yuksel covered the "Application of Creative Drama" and explained the implementation guidelines for each topic.

Following the conference, a dinner was arranged with the guests to discuss future cooperation matters. At the end, gifts and l certificates were presented to the conference participants, and gratitude was extended to the "Asterias" company for sponsoring the event.



# SUMQAYITDA TƏDBİR: "GƏNCLƏR – GƏLƏCƏKDİR"

# EVENT IN SUMGAYIT: "YOUTH IS THE FUTURE"





*Müşfiq Məmmədli*

Aprelin 27-də Sumqayıt "Dünya" məktəbi, Xəzər Universiteti, Sumqayıt Dövlət Universiteti və Gənclərin İnkişaf və Karyera Mərkəzinin (GİKM)Abşeron-Xızı regional nümayəndəliyinin birgə əməkdaşlığı ilə Sumqayıtda Heydər Əliyev Mərkəzində "Gənclər – Gələcəkdir" adlı tədbir keçirilib.

Tədbirdə "Müasir gənclər və milli-mənəvi dəyərlərimiz", "Təhsilin dünyaya açdığı pəncərə", "Beynəlxalq təhsilin Azərbaycan məktəblərinə təsiri", "Dissiplin – zəfərin ilk pilləsi", "Yeni dövrün bacarıqları və şagird profili", "Xaricdə təhsil imkanları", "Sahibkarlıqda öz yolunu açmaq", "Yumşaq bacarıqların inkişaf etdirilməsinin vacibliyi" və "Gənclik və karyera hazırlığı: Uğura gedən yol" mövzularında məruzələr dinlənilib.

Xəzər Universiteti və "Dünya" məktəbinin təsisçisi, Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, "Dünya" məktəblərinin baş direktoru Aygün İsayeva, "Dünya" IB Məktəbinin direktoru Rəna Həsənova, Sumqayıt Dövlət Universitetinin rektoru Rüfət Əzizov və "Dünya" məktəbinin məzunları öz məruzələrində təhsil sahəsində müasir dövrün tələbləri haqqında fikir və mülahizələrini bildiriblər. Sumqayıt "Dünya" məktəbinin direktoru Çiçək Qaracayevanın rəhbərliyi və şagirdlərin iştirakı ilə yeniyetmələr və gənclərə həsr olunmuş film tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Tədbirdə rəsmi qonaqlar kimi Milli Məclisin deputatı Müşfiq Məmmədli, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Teymur Səmədov, GİKM-in baş direktoru Azər Əliyev, Qızıl Aypara

On April 27, with the joint cooperation of Sumgayit "Dunya" school, Khazar University, Sumgayit State University and the Absheron-Khizi regional representative office of Youth Development and Career Center, an event called "Youth is the Future" was held at the Heydar Aliyev Center in Sumgayit.

Various topics were addressed during the event, including "Modern Youth and Our National and Moral Values", "Education: Gateway to the World", " International Education's Influence on Azerbaijani Schools ", "Victory Begins with Discipline", " New Era Student Profiles and Skills", "Education Opportunities Abroad", " Entrepreneurship", " Developing Soft Skills" and "Youth and Career Preparation: The path to success" .

Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and "Dunya" school, chairman of the Board of Directors and Trustees of Khazar University, Aygun Isayeva, director general of "Dunya" schools, Rana Hasanova, director of "Dunya" IB School, Rector of Sumgayit State University Rufat Azizov, and graduates of "Dunya" school In their reports, they expressed their thoughts and opinions about the requirements of the modern era in the field of education. The film dedicated to teenagers and young people with the participation of the director of Sumgayit "Dunya" school Chichek Garacayeva and students was welcomed by the participants of the event.

Deputy of Milli Majlis Mushfig Mammadli, Deputy Head of Sumgayit City Executive Power Teymur Samadov, General Director of Youth Development and Career Center Azer Aliyev, Chairman of Sumgayit

Cəmiyyəti Sumqayıt şəhər təşkilatının sədri Mətanət Məhərrəmova, həmçinin Asan xidmət 1, Asan xidmət 2, Neftçala rayon təhsil sektoru, Bakı və Sumqayıt şəhərlərində fəaliyyət göstərən məktəb rəhbərləri və şagirdlər, Sumqayıt Dövlət Universiteti, Sumqayıt Dövlət Kolleci, Bakı Mühəndislik Universiteti, Qızıl Aypara Cəmiyyəti əməkdaşları və digər qonaqlar iştirak ediblər.

Saytlar tədbir haqqında xəbər yayımlayıb:

City Organization of Red Crescent Society Matanat Maharramova, as well as Asan service 1, Asan service 2, neftchala district education sector, heads and pupils of schools operating in Baku and Sumgayit cities, employees of Sumgayit State University, Sumgayit State College, Baku Engineering University, Red Crescent Society and others attended the event as official guests.

News websites covered the news about the event:

*https://moderator.az/az/cemiyyet/764904/gencler-gelecekdir-adli-tedbir-kecirildi-fotolar/*
*https://sumqayitxeber.com/sumqayitda-gencler-gelecekdir-adli-tedbir-kecirilib/*



*Teymur Səmədov* *Hamlet İsaxanlı*



## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜDİRİ BEYNƏLXALQ KONFRANSDA ƏSAS MƏRUZƏÇİ KİMİ ÇIXIŞ EDİB

## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT HEAD AS A KEYNOTE SPEAKER AT THE INTERNATIONAL CONFERENCE

Martın 30-da İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova Özbəkistanın Cizzak Dövlət Pedaqoji Universitetinin təşkilatçılığı ilə "Xarici filologiya, ədəbiyyatşünaslıq və tərcüməşünaslıq problemləri" mövzusunda keçirilən beynəlxalq konfransda əsas məruzəçi kimi "Media və texnologiyada dilin tədqiqi: sosial məkanlarda təkamül və təsir" mövzusunda çıxış etmişdir.

On March 30, Dr. Milana Abbasova the head of the English Language and Literature department delivered her keynote speech on "Exploring Language in Media and Technology: Evolution and Impact in Social Spaces" at International Conference on Issues of Foreign Philology, Literary Studies and Translation Studies, organized by Jizzakh State Pedagogical University, Jizzakh, Uzbekistan.

## XƏZƏR DEBAT KLUBUNDA "SHOW DEBATE" YARIŞMASI

## "SHOW DEBATE" COMPETITION AT KHAZAR DEBATE CLUB



Martın 31-də Xəzər Universitetinin Bakıxanov kampusunun akt zalında Xəzər debat klubunda "Show Debate" yarışması keçirilib. Yarışmada 2 komanda iştirak edib.

"Əlayıq opponent" komandasını spikerlər Fidan Qarayeva, Ləman Əsgərova, Anar İbrahimov, "Əlasız opponent" komandasını isə spikerlər Mətləb Hacıyev, Amil Ramazanov və Esmira Həsənova təmsil ediblər.

"Show Debate" bitdikdən sonra ümumi debat haqqında ilkin məlumatlar verilib.

On March 31, the "Show Debate" competition was held at the Khazar debate club in the assembly hall of Khazar University's Bakikhanov campus. 2 teams participated in the competition.

Speakers Fidan Garayeva, Laman Asgarova, Anar Ibrahimov represented the "Decent opponent" team, and Matlab Hajiyev, Amil Ramazanov and Esmira Hasanova represented the "Weak opponent" team.

After the "Show Debate" ended, initial information about the general debate was provided.

## TÜRKİYƏLİ PROFESSOR XƏZƏR UNİVERSİTETİNDƏ



*İradə Xəlilova, Ahmet Arslan, Orxan Vəliyev*

Türkiyəli professor Ahmet Arslan aprelin 1-də Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllim heyəti və tələbələri ilə görüşüb.

Görüşdə departament müdiri Dr. Orxan Vəliyev, departament assistenti və müəllimi Aydan Raufqızı, müəllimlərdən Gülcan Qulaxmed, Rahil Dadaşlı, Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Aygün Verdiyeva, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli iştirak ediblər.

Söhbət zamanı Prof. Ahmet Arslan həyat təcrübəsindən danışıb, fəlsəfənin tarixi, müasir dövrdə fəlsəfənin yeri və rolu, Azərbaycan və Türkiyə əlaqələri və digər məsələlər müzakirə olunub. Professorun çıxışından sonra tələbələrin sualları cavablandırılıb.

Görüşdən sonra Xəzər Universitetinin rəhbərliyi adından Prof. Ahmet Arslan`ın 80 illik yubileyi münasibətilə ziyafət təşkil olunub və rektor Dos. İradə Xəlilova Prof. Ahmet Arslana Xəzər Universiteti adından hədiyyə təqdim edib.

## TURKISH PROFESSOR AT KHAZAR UNIVERSITY

On April 1, Turkish Prof. Ahmet Arslan convened with the faculty and students of Khazar University's Department of Political Sciences and Philosophy

Department Head Assoc. Prof. Orkhan Valiyev, assistant and instructor Aydan Raufqizi, along with instructors Guljan Gulakhmed and Rahil Dadashli, as well as the deputy dean of the School of Humanities and Social Sciences Aygun Verdiyeva and the director of Public Relations and Media Alovsat Amirbeyli attended the meeting. Alovsat Amirbeyli, the director of Public Relations and Media, greeted the guest and commenced the event. Throughout the discussion, topics ranging from Professor Ahmet Arslan's life experiences to the history of philosophy, the place and role of philosophy in modern times, relations between Azerbaijan and Türkiye were explored. Following the professor's address, questions from students were answered.

Following the meeting, a celebration was organized on behalf of Khazar University administration on the occasion of Prof. Ahmad Arslan's 80th anniversary, and Khazar University Rector Assoc. Prof. Irada Khalilova presented Prof. Ahmed Arslan with a special gift on behalf of Khazar University. At the end of the event, memory photos were taken with the guest.

# XARİCİ PROFESSORUN MÜƏLLİMLƏR VƏ TƏLƏBƏLƏR ÜÇÜN SEMİNARI





*Shahbahrami Asadollah*

# FOREIGN PROFESSOR HOSTS SEMINAR FOR FACULTY AND STUDENTS

Aprelin 2-də Xəzər Universitetində Gilan Universitetinin (İran İslam Respublikası) professoru Dr. Shahbahrami Asadollah'ın Təbiət elmləri və mühəndislik fakültəsinin professor-müəllim heyəti və tələbələri üçün elmi seminarı keçirilib. Fakültənin dekanı Dr. Fəxrəndə Əfəndiyeva seminar iştirakçılarını salamlayaraq, onlara professorun iş təcrübəsi, tədqiqat işləri və elm sahəsində əldə etdiyi nailiyyətlər barədə məlumat verib.

Sonra Prof. Dr. Shahbahrami təqdim etdiyi mövzunun aktuallığı, kompüter elmləri sahəsində ən son yenilik və texnologiyalar barədə məruzə edib, CPU və GPU texnologiyaları arasındakı fərqləri və praktikadakı tətbiqlərindən danışıb.

Sonda professor tələbələrin suallarını cavablandırıb.

On April 2, a scientific seminar was held at Khazar University for faculty members and students of the School of Science and Engineering by the Gilan University Professor Dr. Shahbahrami Asadollah. The dean of the faculty, Dr. Fakhranda Efendiyeva, welcomed the attendees of the seminar and provided an overview on the professor's work experience, research works and achievements in the realm of science.

Then Dr. Shahbahrami delivered a speech about the relevance of the topic he presented, the latest innovations and technologies in the field of computer science, elucidating the differences between CPU and GPU technologies and their applications in practice. In the end, the professor answered the students' questions.



## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜDİRİ BEYNƏLXALQ SEMİNARDA QONAQ MƏRUZƏÇİ QİSMİNDƏ

Aprelin 3-də İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova Hindistanın SRM Elm və Texnologiya İnstitutunun İngilis dili və xarici dillər fakültəsi və Lavanda Ədəbiyyat Klubunun birgə təşkil etdiyi "Elmi jurnallarda tədqiqat məqalələrinin yazılması və nəşri" mövzusunda üç günlük Beynəlxalq Virtual Seminarda qonaq mühazirəçi kimi "Düzgün tədqiqat mövzusunun seçilməsi" mövzusunda məruzə edib.

## HEAD OF THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE AS A GUEST LECTURER AT THE INTERNATIONAL WORKSHOP

On April 3, Dr. Milana Abbasova the head of the English Language and Literature department delivered a speech on "Selecting a right research topic" as a guest lecturer at the Three Day International Virtual Workshop on "Research article writing and publication in scholarly journals" jointly organized by Department of English and Foreign Languages SRM Institute of Science and Technology and Lavender Literary Club, India.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN DOKTORANTINA FƏLSƏFƏ DOKTORU DİPLOMU VERİLİB

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 18 mart 2024-cü il tarixli qərarı ilə Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin doktorantı, Əminə Ənvər qızı Səfərzadənin 5708.01 – German dilləri ixtisası üzrə «Корреляция порядка слов и фразового ударения в современном английском языке» ("Müasir ingilis dilində söz sırası və cümlə vurğusunun korrelyasiyası") mövzusunda müdafiə etdiyi dissertasiya işi filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüş və 2024-cü il aprelin 5-də ona Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən fəlsəfə doktoru diplomu təqdim edilmişdir.

## PH. D. STUDENT OF ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT RECEIVES DOCTOR OF PHILOSOPHY DIPLOMA

According to the decision of the Higher Attestation Commission under the president of the Republic of Azerbaijan dated March 18, 2024, the doctoral student of the Department of English Language and Literature of Khazar University Amina Anvar Safarzade was conferred the title of Doctor of Philosophy in Philology for her dissertation titled "Correlation of Word Order and Sentence Accent in Modern English," specializing in 5708.01 – German languages. On April 5, 2024, the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan awarded him with a Doctor of Philosophy diploma.

# XƏZƏR UNİVERSİTETİNƏ KİTAB HƏDİYYƏSİ
# BOOK GIFT TO KHAZAR UNIVERSITY

**Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri cənab Hamlet İsaxanlıya**

**Hörmətli Hamlet müəllim,**

Azərbaycanın uzunmüddətli və etibarlı tərəfdaşı kimi bp ölkədəki sosial fəaliyyətləri çərçivəsində prioritet sahələrdən biri olan təhsilin inkişafına daim dəstək vermişdir. Hesab edirik ki, yerli universitetlərin tələbələri və müəllim heyətinə öz ana dilində dünyanın ən yaxşı akademik kitablarından istifadə imkanının yaradılması mühüm əhəmiyyət kəsb edir.

Bununla əlaqədar qeyd etmək istərdim ki, bp şirkəti 2018-ci ildən bəri dəstəklədiyi sosial layihələr çərçivəsində beynəlxalq miqyasda tanınmış 24 akademik dərsliyin ingilis dilindən Azərbaycan dilinə tərcüməsinə və çapına nail olub. Dərsliklər beynəlxalq iqtisadiyyat, makro və mikro iqtisadiyyat, menecmentin əsasları, bank işi və maliyyə bazarları, tədarük-təchizatın idarə edilməsi, insan resuslarının idarə olunması, media və kütləvi kommunikasiyalar, marketinqin prinsipləri, sosial işlərdə etik dəyərlər kimi mövzuları əhatə edir. Qeyd edilən 24 dərslikdən 19-u artıq ictimaiyyətə, o cümlədən ölkənin ali məktəb və kitabxanalarına təqdim edilib. Layihə çərçivəsində daha 5 dərsliyin Azərbaycan dilinə tərcüməsi və nəşri bu günlərdə yekunlaşıb və ictimaiyyətə təqdim olunub. Böyük məmnuniyyətlə Sizin universitet üçün nəzərdə tutulan nüsxələri bu məktuba əlavə edərək universitetinizə hədiyyə edirik.

Bir daha Sizə ən xoş arzularımı çatdırır və Azərbaycan Respublikasının tərəqqisi naminə fəaliyyətinizdə davamlı uğurlar arzu edirəm.

*Hörmətlə,*
**Bəxtiyar Aslanbəyli**
*Xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezident*
*Xəzər regionu*

**To Mr. Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees**

**Dear Hamlet Isakhanli,**

As a longstanding and steadfast partner of Azerbaijan, bp has always supported the development of education, which is one of the priority areas within its social activities in the country. We firmly believe in the significance of providing students and faculty at local universities access to the world's finest academic literature in their native language.

In this regard, I would like to note that within the framework of the social projects that bp has supported since 2018, it has managed to translate and publish 24 internationally recognized academic textbooks from English into Azerbaijani. These textbooks cover a wide array of subjects, including International Economics, Macro and Microeconomics, Management Fundamentals, Banking and Financial Markets, Supply Management, Human Resources Management, Media and Mass Communications, Marketing Principles, and Ethical Values in Social Work. Nineteen out of these 24 textbooks have already been unveiled to the public, as well as distributed to universities and libraries across the country. The translation and publication of five additional textbooks within this project have recently been finalized, and we are delighted to attach copies intended for your university to this letter and present them to you.

Once again, I extend my warmest regards to you and express my sincere wishes for the continued success in your endeavors for the progress of the Republic of Azerbaijan.

*Sincerely,*
**Bakhtiyar Aslanbeyli**
*Vice-President for External Relations and Communication*
*Caspian region*

# XƏZƏR UNİVERSİTETİNİN DİSSERTANTINA FƏLSƏFƏ DOKTORU DİPLOMU TƏQDİM OLUNUB

# DOCTOR OF PHILOSOPHY DIPLOMA PRESENTED TO KHAZAR UNIVERSITY PHD CANDIDATE


AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ
18.03.2024-cü il TARİXLİ
QƏRARI İLƏ
Xanım İsaxanovna Ömərоğluna
(adı, atasının adı, soyadı)
1202.01 - Analiz və funksional analiz İXTİSASINDA
(ixtisasın şifri və adı)
riyaziyyat ELM SAHƏSİ ÜZRƏ
(elm sahəsinin adı)
FƏLSƏFƏ DOKTORU
ELMİ DƏRƏCƏSİ VERİLMİŞDİR
SƏDR: (imza) Famil Mustafayev (adı, soyadı)
BAŞ ELMİ KATİB: (imza) Gülarə Tağı-zadə (adı, soyadı)
M.Y.

Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında (AAK) Xəzər Universitetinin Riyaziyyat departamentinin dissertantı və İqtisadiyyat və menecment fakültəsinin dekan müavini Xanım Ömərоğluna riyaziyyat üzrə fəlsəfə doktoru diplomu təqdim olunub. AAK-ın qərarı ilə ona 1202.01- Analiz və funksional analiz üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir.

Qeyd edək ki, Xanım Ömərоğlu 2023-cü il noyabrın 24-də AR ETN Riyaziyyat və Mexanika İnstitutunun ED 1.04 Dissertasiya Şurasında "Harmonik analizin inteqral çevirmələrinin bəzi xassələri" mövzusunda dissertasiya işini müdafiə etmişdi.

On April 5, at the High Attestation Commission (HAC) under the President of the Republic of Azerbaijan, a Doctor of Philosophy diploma in Mathematics was presented to Khanim Omaroghlu, a doctoral student of the Department of Mathematics at Khazar University and the Vice-Dean of the School of Economics and Management. By the decision of the HAC, she was awarded the scientific degree of Doctor of Philosophy in the field of 1202.01 - Analysis and Functional Analysis.

Note that on November 24, 2023, Khanim Omaroghlu defended her dissertation titled "Some Properties of Integral Transformations of Harmonic Analysis" at the ED 1.04 Dissertation Council of the Institute of Mathematics and Mechanics of the Ministry of Science and Education of the Republic of Azerbaijan.

# XƏZƏR UNİVERSİTETİ İFTAR VERDİ
# IFTAR DINNER AT KHAZAR UNIVERSITY



*İradə Xəlilova, Lyudmila Sotova, Fatimə Vəliyeva, Humay Hüseynova*

Aprelin 6-da Bakıdakı restoranların birində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlının təşəbbüsü ilə universitetin oruc tutan əməkdaşları, yataqxanada yaşayan yerli və xarici tələbələr üçün iftar süfrəsi açıldı. İftar yeməyinə universitetin rektoru, dekanlar və digər rəhbər şəxslər qatıldı. Süfrə ətrafında iftar açanlar tərəfindən universitet rəhbərliyinə təşəkkür edildi.






On April 6, at the initiative of Prof. Acad.Hamlet Isakhanli, founder of Khazar University and chairman of its Board of Directors and trustees, an iftar dinner was arranged for the University's fasting staff and local and foreign students residing in the dormitory. The university's rector, deans, and other leaders also joined the iftar meal, where attendees expressed gratitude towards the university administration.

# "AIESEC" AZƏRBAYCAN ŞİRKƏTİNİN 1-Cİ KURS TƏLƏBƏLƏRİ ÜÇÜN İNFOSESSİYASI

# AIESEC AZERBAIJAN HOSTS INFORMATION SESSION FOR FIRST-YEAR STUDENTS



*Fərid Kərimzadə*




Aprelin 8-də Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə "AIESEC" Azərbaycan şirkəti universitetdə "İbtidai sinif müəllimliyi" ixtisası üzrə təhsil alan 1-ci kurs tələbələri üçün infosessiya keçirdi. Şirkətin nümayəndəsi Fərid Kərimzadə çıxışında "AIESEC" Azərbaycan şirkətinin yaranma tarixindən, fəaliyyətindən və həyata keçirdiyi layihələrdən ətraflı bəhs etdi. Dedi ki, şirkətin əsas məqsədlərindən biri tələbələri bir araya toplayaraq, yeni ideyalar yaratmaq və inkişaf etdirməkdən ibarətdir.

İnfosessiyada Fərid Kərimzadə ilə yanaşı sözügedən şirkətin müxtəlif departamentlərində işləyən Xəzər Universitetinin 2-ci kurs tələbələri – Jalə Zeynallı və Aynur Salahlı da iştirak edirdilər. Onlar da infosessiya iştirakçıları ilə öz təcrübələrini bölüşdülər,"Global Teacher", "Qlobal Talant" və "Qlobal Volunteer" adlı təcrübə proqramları barədə, yerli layihələr haqqında məlumat verdilər.

Görüşdə tələbələrin "AIESEC"-in layihələrinə qoşulmaqla liderlik, satış, marketinq, eləcə də digər yumşaq və sərt bacarıqlarını inkişaf etdirmək üçün geniş imkanların olduğu vurğulandı.

On April 8, the Career and Alumni Center at Khazar University, in collaboration with AIESEC Azerbaijan, conducted an information session for first-year students enrolled in the "primary school teaching" program. Farid Karimzade, a representative of AIESEC Azerbaijan, spoke in detail about the company's history, initiatives, and projects. He emphasized that the company's primary objective is to gather students together and create and develop new ideas.

Along with Farid Karimzade, 2nd year students working in different departments of the mentioned company - Jala Zeynalli and Aynur Salahli also participated in the information session. They also shared their experience with the participants of the info session, gave information about the experience programs "Global Teacher", "Global Talent" and "Global Volunteer" and local projects. At the meeting, it was emphasized that there are ample opportunities for students to develop leadership, sales, marketing, as well as other soft and hard skills by joining the projects of "AIESEC".




# ÖMƏR FAİQ NEMANZADƏYƏ HƏSR OLUNAN "SOLMADI GÜLZARIN, FAİQ ƏFƏNDİ" ADLI TƏDBİR

# EVENT DEDICATED TO OMAR FAIG NEMANZADE "YOUR FLOWERS DID NOT WITHER, FAIG EFFENDI"

Aprelin 9-da Xəzər Universitetində Dillər və ədəbiyyatlar departamentinin "Çapar" Yayın Evi ilə birgə təşkil etdiyi tədbir Azərbaycan ictimai fikrinin inkişafında, milli mədəniyyətin tərəqqisində, yeni ideyaların möhkəmlənməsində mühüm rol oynayan görkəmli ziyalı, böyük maarifçi Ömər Faiq Nemanzadənin həyat və yaradıcılığına həsr olunub.

Tədbiri Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova açaraq, Ö. F. Nemanzadənin Azərbaycan publisistikasının inkişafında əvəzsiz xidmətlərindən danışıb, onun mollanəsrəddinçilərin ideya rəhbərlərindən biri olduğunu vurğulayıb.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı "Molla Nəsrəddin" jurnalının təsis edilməsində Ö.F. Nemanzadənin rolundan, əməkdaşlıq etdiyi "Şərqi-Rus" qəzetində, sonra isə Tiflisdə "Qeyrət" mətbəəsində və "Molla Nəsrəddin" jurnalındakı fəaliyyətindən, keçdiyi həyat yolundan və xatirələrindən ətraflı danışıb. O, Nemanzadənin təkcə maarifçi-demokratik ideya-



*Dilbər Zeynalova*

On April 9, the event organized by the Department of languages and literature at Khazar University together with the "Chapar" publishing house was dedicated to the life and contributions of Omar Faig Nemanzade, an outstanding intellectual, great enlightener





*Hamlet İsaxanlı*

ların carçısı, publisist, mətbuat nümayəndəsi olmadığını, onun həm də bir təhsil işçisi, müəllim və maarifçilik ideyalarını təbliğ edən vətənpərvər ziyalı olduğunu söyləyib. Natiq öz çıxışında Ö.F.Nemanzadənin varislərinin, xüsusilə onun irsinin yorulmaz təbliğatçısı, hazırda Böyük Britaniyada Azərbaycan diasporunun nümayəndəsi Ülviyyə Pepinovanın fəaliyyətini yüksək qiymətləndirib.

"Çapar" dərgisinin və "Çapar" Yayın Evinin təsisçisi Yusif İlhamoğlu jurnalın Ö.F. Nemanzadəyə həsr olunan xüsusi buraxılışlarından geniş bəhs edib.

Sonda Hamlet İsaxanlı tələbələrin suallarını cavablandırıb və iştirakçılara təşəkkürünü bildirib.

who played an important role in shaping Azerbaijani public opinion, the progress of our national cult)re, and promoting new ideas. Opening the event, head of the Department of languages and literature of Khazar University Assoc. Prof. Dilbar Zeynalova spoke about the invaluable contributions of Omar Faig Efendi to the development of Azerbaijani journalism and stressed that he was one of the leaders of ideas of Mollanasreddinists. Then Prof. Acad.Hamlet Isakhanli, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, was given the floor. He spoke in detail about O.F. Nemanzadeh's role in the establishment of "Molla Nasreddin" magazine, his work in the "Shargi-Rus" newspaper with which he cooperated, and then in "Geyrat" printing house in Tbilisi and "Molla Nasreddin" magazine, his life path and memories. Isakhanli underscored Nemanzade's multifaceted role as an advocate for enlightened-democratic ideals, a journalist, educator, and patriotic intellectual. In his speech, the speaker commended the activities of O. F. Nemanzadeh's descendants, especially Ulviyya Pepinova, a promoter of his legacy, currently a representative of the Azerbaijani Diaspora in Great Britain. Later, Yusif İlhamoğlu, the founder of "Chapar" magazine and Chapar publications, spoke about the special editions of the magazine dedicated to O. F. Nemanzadeh. The event concluded with Hamlet Isakhanli addressing questions from students and expressing gratitude to all participants.




*"Xəzər"in müəllimi Mədinə Karahan*

*Yusif İlhamoğlu*

# "AZƏRBAYCAN REKTORLAR KONFRANSININ YARADILMASI" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ NÖVBƏTİ GÖRÜŞ




*Fatimə Vəliyeva*

# NEXT MEETING WITHIN THE "ESTABLISHMENT OF THE AZERBAIJAN RECTORS' CONFERENCE" PROJECT

Aprelin 8-9-da Bakı Biznes Universitetinin koordinatoru olduğu və Avropa Komissiyası tərəfindən maliyyələşdirilən "Azərbaycan Rektorlar Konfransının yaradılması" Erasmus+ layihəsi çərçivəsində növbəti görüş Gəncə şəhərində baş tutub. Görüşdə Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak edib.

Tədbirin ilk günü Azərbaycan Texnologiya Universitetində (Gəncə) keçirilən komitə iclasında universitetin tədris işləri üzrə prorektoru Dos. Raqif Hüseynov iştirakçıları salamlayaraq, bu layihənin təhsilin beynəlmiləlləşməsi, həmçinin rəqəmsal və innovativ iqtisadiyyatda ali təhsil müəssisələrinin rolunu artırmaq məqsədilə universitetlərarası əlaqələrin təmin olunmasına əhəmiyyətli dərəcədə dəstək verdiyini vurğulayıb.

Tərəfdaş ali təhsil müəssisələrinin məsul şəxslərinin iştirakı ilə keçirilən görüşdə Azərbaycan Dillər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, əvvəlki Beynəlmiləlləşmə komitəsinin sədri Dos. Jalə Qəribova komitənin hesabatını təqdim edib. Bakı Biznes Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Eşqin Bayramov komitə sədri və sədr müavinlərinin yenidən seçkisinin keçirilməsi ilə bağlı iştirakçılara məlumat verib və səsvermə keçirilib.

Tədbirin növbəti günündə Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) keçirilən görüşdə layihə çərçivəsində yaradılan Beynəlmiləlləşmə komitəsinin gələcək fəaliyyətinə dair müzakirələr aparılıb. Sonra isə qonaqlar Azərbaycan Dövlət Aqrar Universitetinin maddi-texniki bazası ilə yaxından tanış olublar.

On April 8-9, the next meeting was held in Ganja within the framework of the Erasmus+ project "Establishment of the Azerbaijan Rectors' Conference", coordinated by Baku Business University and funded by the European Commission. Fatima Valiyeva, head of Khazar University's International Relations Department, participated in the meeting.

On the first day of the event, at the committee meeting held at the Azerbaijan University of Technology (Ganja), the university's vice-rector for Educational Affairs Assoc. Prof. Ragif Huseynov welcomed the participants and highlighted that this project enhances the inter-university relations in order to increase the role of higher education institutions in the internationalization of education and the digital and innovative economy.

At the meeting held with the participation of the responsible persons of the partner higher educational institutions, Assoc. Prof. Jala Garibova, vice-rector for international relations of Azerbaijan University of Languages, chairperson of the previous Internationalization Committee, presented the report of the committee. Eshgin Bayramov, vice-rector for international relations of Baku Business University, informed the participants about the re-election of committee chairman and deputy chairman, and voting was held.

On the next day of the event, the meeting held at the Azerbaijan State Agricultural University discussed the future activities of the Internationalization Committee created within the framework of the project. Then the guests got acquainted with the material and technical base of the Azerbaijan State Agricultural University.

# ERASMUS+ TƏLƏBƏ MÜBADİLƏ PROQRAMI
# ERASMUS+ STUDENT EXCHANGE PROGRAM

## SABANÇI UNİVERSİTETİNDƏ BİR SEMESTR



*Ortada: İbrahim Gülmalıyev*

Mən – İqtisadiyyat və menecment fakültəsinin Biznesin idarə edilməsi ixtisasının 4-cü kurs tələbəsi İbrahim Gülmalıyev Sabancı Universitetində Erasmus tələbə mübadiləsi proqramında iştirak etdim. Bu təkcə tədris göstəricilərimi yaxşılaşdırmaq məqsədi daşımırdı; bu, özünükəşf yolunda hərtərəfli bir səyahət idi. İstanbul küçələrinin labirintləri mənə onun tarixini öyrədən məktəb kimi idi. Həmişə eyni dildə danışmasaq da, mən gündəlik qarşılıqlı ünsiyyətimdə müxtəlif mədəniyyətləri başa düşməyi öyrəndim.

Sabancı Universitetində akademik dəqiqlik Xəzər Universitetindən bildiyim yüksək standartları əks etdirirdi, lakin tədris mühitində fərqli məqamlar var idi.

Nəhəng universitet şəhərciyi özünəməxsus xüsusiyyəti ilə fərqlənirdi: binalara və sinif otaqlarına 24/7 rejimində giriş mümkün idi. Təsəvvür edin, gecə saat 3-də zəif işıqlandırılan oxu zalı dünyanın hər yerindən gələn, bilik axtarışında olan tələbələrlə doludur. Bu şərait müstəqil öyrənmə mədəniyyətini inkişaf etdirməklə mənə təhsilimi öz tempimə uyğunlaşdırmağa imkan verdi.

Heç bir tərəddüd etmədən hər kəsin bu cür proqramlarda iştirak etməsini arzulayıram – bu proqramlar müxtəlif baxış nöqtələri, həyat tərzi və düşüncə tərzi ilə tanış olmaq üçün əvəzolunmaz imkanlar təqdim edir.

"Səyahət yeganə həqiqi təhsildir" – Albert Eynşteyn. Razıyam.

**İbrahim Gülmalıyev**

## ONE SEMESTER AT SABANCI UNIVERSITY

I, Ibrahim Gulmaliyev, a 4th year student studying Business Management at the School of Economics and Management, took part in the Erasmus student exchange program at Sabancı University. This exchange wasn't just about bolstering my transcript; it was a profound voyage of self-discovery. Istanbul's labyrinthine streets became my classroom. This wasn't just about classrooms; it was about Istanbul's bustling streets becoming my personal odyssey, where every interaction unveiled a new facet of self-awareness. Communication transcended the limitations of language; mastering the art of navigating cultural nuances became an essential skill honed through everyday encounters.

The academic rigor at Sabanci University mirrored the high standards I knew from Khazar University, yet a distinct pulse thrummed through the learning environment. The vast university campus boasted a unique feature: buildings and study rooms were accessible 24/7. Picture this: the quiet hum of concentration in a dimly lit study room at 3 am, surrounded by fellow students from across the globe, all united in the pursuit of knowledge. This unparalleled access fostered a culture of independent learning, allowing me to tailor my studies to my own unique rhythm.

I wholeheartedly encourage everyone to participate in such programs – they offer invaluable exposure to different perspectives, lifestyles, and ways of thinking.

"Travel is the only true education." - Albert Einstein. I concur

**Ibrahim Gulmaliyev**



Cihad Gündüz, Mehmet Karakoç

# DİCLE UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

# DICLE UNIVERSITY REPRESENTATIVES AT KHAZAR UNIVERSITY

Aprelin 17-də Türkiyənin Dicle Universitetinin rektoru Prof. Dr. Mehmet Karakoç və universitetin Xarici dillər bölümünün nümayəndəsi Cihad Gündüz Xəzər Universitetində olublar. Universitetin Tədris işləri üzrə prorektoru Prof. Məhəmməd Nuriyev və İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli qonaqlara universitetin tarixi və fəaliyyəti barədə məlumat veriblər.

Sonra Dicle Universitetinin rektoru Prof. Dr. Mehmet Karakoç təmsil etdiyi universitetin fəaliyyəti haqqında danışıb. Tədbirdə Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu, departamentin müəllimi Dr. Söhrab Mustafayev, Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Turan Əlizadə, Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Aygün Verdiyeva da iştirak ediblər.

Görüşün sonunda universitetlər arasında memorandum imzalanıb və hədiyyələr təqdim olunub.

On April 17, Prof. Dr. Mehmet Karakoch, rector of Türkiye's Dicle University, and Jihad Gunduz, representative of the Department of Foreign Languages, paid an official visit to Khazar University. Khazar University vice-rector for Educational Affairs Mahammad Nuriyev and Public Relations and Media director Alovsat Amirbeyli briefed the guests on the university's history and ongoing initiatives. Later, Dicle University Rector Prof. Dr. Mehmet Karakoch spoke about the activities of the university he represents. Assoc. Prof. Telman Nusratoghlu, head of Khazar University's History and Archeology Department, Dr. Sohrab Mustafayev, department's lecturer , Turan Alizade, coordinator of the International Relations office, Aygun Verdiyeva, deputy dean of the School of Humanities, Education and Social Sciences, also participated in the event. The meeting concluded with the signing of a memorandum of understanding between the two universities and the exchange of gifts.




Söhrab Mustafayev, Əlövsət Əmirbəyli, Məhəmməd Nuriyev, Mehmet Karakoç, Telman Nüsrətoğlu, Cihad Gündüz, Aygün Verdiyeva, Turan Əlizadə



*Asif Məmmədov, Aysel Məmmədova,Təhmin Bəkirov, Viktoras Daqilis*

# LİTVA FİLMİ "SON FÜRSƏT" XƏZƏR UNİVERSİTETİNİN DƏSTƏYİ İLƏ NÜMAYİŞ OLUNUB

# LITHUANIAN FILM "JUMP" SCREENED WITH SUPPORT OF KHAZAR UNIVERSITY

Aprelin 18-də Landmark hotelində litvalı dənizçi Simas Kudirka`nın həyatından bəhs edən "Son fürsət" sənədli filminin nümayişi baş tutmuşdur. Rejissoru Gedre Jitskite olan film 1970-ci ildə sovet gəmisindən ABŞ gəmisinə tullanan və amerikalılardan sığınacaq istəyən dənizçidən bəhs edir. Film boyu S.Kudirka azadlığa doğru olan inanılmaz hekayəsindən danışır.

Qeyd edək ki, film müxtəlif kinofestivallarda nümayiş etdirilib və nüfuzlu mükafatlara, o cümlədən Varşava Beynəlxalq Film Festivalında "Ən yaxşı bədii sənədli film" mükafatına layiq görülüb.

Film Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin və Tərcümə mərkəzinin rəhbərliyi altında tərcümə ixtisasında təhsil alan 4-cü kurs tələbələri Asif Məmmədov, Təhmin Bəkirov, Aysel Məmmədova və Səriyyə Rəşidova tərəfindən tərcümə edilmişdir.

"İlk dəfədir ki, bu filmi azərbaycanca subtitrlərlə nümayiş etdiririk. Çox şanslıyıq ki, Xəzər Universitetinin tələbələri və əməkdaşları ilə birlikdə bunu edə bildik", - Litvanın Azərbaycandakı müvəqqəti işlər vəkili Viktoras Daqilis bildirib.

Tədbir zamanı, həmçinin, filmin Azərbaycan dilinə tərcüməsində və subtitrlərdə əks olunmasına köməklik göstərən Xəzər Universiteti tələbələrinin mükafatlandırma mərasimi keçirilib.

On April 18, the documentary film "Jump", which chronicles the life of Lithuanian sailor Simas Kudirka was screened at the Landmark Hotel in Baku. The film, directed by Gedre Jitskite, tells the story of a sailor who jumped from a Soviet ship to a US ship in 1970 in a bid for asylum from the Americans. Throughout the documentary, S. Kudirka recounts the remarkable story of his pursuit of freedom.

Note that the film was showcased at various film festivals and received prestigious awards, including the "Best Feature Documentary" award at the Warsaw International Film Festival.

The film was translated by Asif Mammadov, Tahmin Bakirov, Aysel Mammadova, Sariya Rashidova, 4th year translation students under the supervision of Khazar University's Department of English Language and Literature and Translation and Interpretation Center.

"This is the first time that this film is screened with Azerbaijani subtitles. We are very lucky that we were able to do this together with the students and staff of Khazar University", said Viktoras Daghilis, Lithuania's Chargé d'Affaires in Azerbaijan. During the event, an awarding ceremony was also held for the students of Khazar University for their contribution to translating and subtitling the film into Azerbaijani. Several news outlets covered the event.

*https://report.az/incesenet-xeberleri/bakida-litvali-denizci-haqqinda-senedli-film-numayis-olunub/ və s.*

# TARİXÇİLƏRİN NÖVBƏTİ DƏRSİ İÇƏRİŞƏHƏRİN MÜDAFİƏ İSTEHKAMLARINDA

# UPCOMING LESSON OF HISTORY STUDENTS IN OLD CITY'S DEFENSIVE FORTIFICATIONS

Aprelin 18-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin tarix müəllimliyi ixtisasının ikinci kurs tələbələrinin "Müharibələr tarixi" fənnindən "Azərbaycanın müdafiə tikililəri" mövzusunun davamı olaraq fənn müəllimi Orxan Zamanovun təşkilatçılığı ilə "İçərişəhər qala divarları", "Dördkünc bürc", "Qız qalası" və "Şirvanşahlar sarayının müdafiə divarları" abidələrinə tədris ekskursiyası təşkil olunub. Tədrisdə əyaniliyin təmin edilməsi üçün təşkil edilmiş ekskursiya Azərbaycanın müdafiə memarlığının vacib tərkib hissəsi olan İçərişəhərin müdafiə istehkamlarının Azərbaycan xalqının hərb sənəti və tarixindəki əhəmiyyətli rolunun öyrənilməsi baxımından qiymətlidir.

Tələbələr sözügedən qalaların tarixi-funksionallığı, çoxməqsədli istifadəsi və onların Azərbaycan xalqının tarixində rolu haqqında ətraflı məlumat alıblar, digər Azərbaycan qalaları barədə geniş müzakirə aparıblar. Abidələr ilə əyani tanışlıq tələbələr tərəfindən maraqla qarşılanıb.

On April 18, second-year students of the School of Humanities, Education, and Social Sciences of Khazar University majoring in History Education arranged an educational excursion to "Icherisheher fortress walls","Quadrangular constellation","Maiden Tower" and "Defense walls of Shirvanshahs Palace", coordinated by Orkhan Zamanov as all pertaining to the theme of "Defense buildings of Azerbaijan" within the context of the "History of Wars" subject. The special academic excursion, organized to ensure visualization in teaching, is important in terms of studying the important role of the defense fortifications of the Old City, which is an important component of the defense architecture of Azerbaijan, in the military art and history of our nation.

During the educational excursion, both the subject teacher and the students received detailed information about the history and functionality of these fortresses, their multi-purpose use and their role in the history of our motherland, and held a wide discussion about other Azerbaijani fortresses. The students showed keen interest in visually exploring these monuments.



## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ "ANNALS OF ORADEA UNIVERSITY-MATHEMATICS FASCICOLA" JURNALINDA

## MATHEMATICS DEPARTMENT PROFESSORS PUBLISH JOINT ARTICLE IN 'ANNALS OF ORADEA UNIVERSITY-MATHEMATICS FASCICOLA' JOURNAL

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Riyaziyyat departamentinin professoru, akademik Hamlet İsaxanlının və eyni departamentin professoru Biləndər Allahverdiyevin "The resolvent operator of singular impulsive dynamic Dirac equations" ("Sinqulyar impulsiv dinamik Dirak tənliklərinin rezolvent operatoru") adlı birgə məqaləsi "Annals of Oradea University-Mathematics Fascicola" jurnalında (2024, Cild 31, № 1) dərc edilib. Qeyd edək ki, "Annals of Oradea University-Mathematics Fascicola" jurnalı MathSciNet (Mathematical Reviews) və Zentralblatt MATH bazalarında indekslənib.

Məqalədə impulsiv sinqulyar dinamik Dirak tənlikləri tədqiq edilir. Əvvəlcə bu tənliklər üçün spektral funksiya qurulur. Daha sonra rezolvent operatorun inteqral təsviri düsturu əldə edilir.

The joint article by Khazar University founder, chairman of the Board of Directors and Trustees, professor of the Department of Mathematics, academician Hamlet Isakhanli and professor of the same department Bilander Allahverdiyev entitled "Resolvent operator of singular impulsive dynamic Dirac equations" was published in "Annals of Oradea University-Mathematics Fascicola" journal (2024, Volume 31 , No. 1) . Note that the journal "Annals of Oradea University-Mathematics Fascicola" is indexed in MathSciNet (Mathematical Reviews) and Zentralblatt MATH databases.

In this study, impulsive singular dynamic Dirac equations are con sidered. Firstly, a spectral function for these equations is constructed. Later, an integral representation of the resolvent operator is obtained.

*http://arhiva-stiinte.uoradea.ro/en/auofm/auofm_contents.htm*
*http://arhiva-stiinte.uoradea.ro/en/auofm.htm*

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ "COMMUNICATIONS FACULTY OF SCIENCES UNIVERSITY OF ANKARA SERIES A1: MATHEMATICS AND STATISTICS" JURNALINDA

## MATHEMATICS DEPARTMENT PROFESSOR'S ARTICLE IN "COMMUNICATIONS FACULTY OF SCIENCES UNIVERSITY OF ANKARA SERIES A1: MATHEMATICS AND STATISTICS" JOURNAL

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "Fractional Dirac systems with Mittag-Leffler kernel" ("Mittaq-Leffler nüvəsi olan fraksiyalı Dirak sistemləri") adlı birinci müəllifi olduğu məqalə "Communications Faculty of Sciences University of Ankara Series A1: Mathematics and Statistics" jurnalında (2024, Cild 73, № 1) dərc olunub. Qeyd edək ki, "Communications Faculty of Sciences University of Ankara Series A1: Mathematics and Statistics" jurnalı "Web of Science" bazasında indekslənib.

Məqalədə Mittaq-Leffler nüvəsi olan bəzi fraksiyalı Dirak tipli sistemlər tədqiq edilir. Klassik Dirak sisteminin əsas spektral xassələri Mittaq-Leffler nüvəsi olan Dirak tipli sistemlərə genişləndirilir.

The article "Fractional Dirac systems with Mittag-Leffler kernel" by Bilander Allahverdiyev, professor of Khazar University Mathematics Department, was published in " Communications Faculty of Sciences University of Ankara Series A1: Mathematics and Statistics "journal (2024, Vol. 73, No. 1). Note that" Communications Faculty of Sciences University of Ankara Series A1: Mathematics and Statistics" journal is indexed in "Web of Science" database.

The paper studies some fractional Dirac-type systems with the Mittag-Leffler kernel. We extend the basic spectral properties of the ordinary Dirac system to the Dirac-type systems with the Mittag-Leffler kernel.

*https://dergipark.org.tr/tr/pub/cfsuasmas/issue/83234/1298907*
*https://dergipark.org.tr/tr/pub/cfsuasmas*

# ERCİYES UNİVERSİTETİ İLƏ BİRLİKDƏ NANO BİOANALİTİK KİMYA MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİ VƏ ANLAŞMA MEMORANDUMUNUN İMZALANMASI






*Fatih Altun*

# OPENING CEREMONY OF NANO BIOANALYTICAL CHEMISTRY CENTER WITH ERCIYES UNIVERSITY AND MOU SIGNING

Aprelin 17-18-də Xəzər Universitetində Erciyes Universitetinin (Türkiyə) nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə qonaqlar - Erciyes Universitetinin rektoru Prof. Dr. Fatih Altun, Texnologiya Tədqiqatı və Tətbiqi Mərkəzinin direktoru Prof. Dr. Mustafa Soylak, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, fakültə dekanları, departament müdirləri və Kimya mühəndisliyi departamentinin koordinatoru Dr. Rəsul Muradi (onlayn) iştirak ediblər.

Görüş Prof. Akad. Hamlet İsaxanlının çıxışı ilə başlayıb, sonra Erciyes Universitetinin rektoru Prof. Dr. Fatih Altun universitetin fəaliyyəti barədə ümumi məlumat verib. Davamında Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva Xəzər Universiteti haqqında təqdimatla çıxış edib.

Prof. Dr. Mustafa Soylak tərəfindən isə Nano Bio-Analitik Kimya Mərkəzi haqqında təqdimat nümayiş olunub.

Çıxışlardan sonra Xəzər Universiteti və Erciyes Universiteti arasında Anlaşma Memorandumu imzalanıb. Nanotexnologiya laboratoriyası haqqında məlumat verilib və Prof. Dr. Mustafa Soylak Kimya mühəndisliyi fakültəsinin professor-müəllim heyəti və doktorantları ilə görüş keçirib. Görüşün sonunda hədiyyə mübadiləsi olub. Proqramın ilk günü qonaqlar

On April 17-18, a meeting with the delegation of Erciyes University was held at Khazar University. The meeting was attended by Rector of Erciyes University Prof. Dr. Fatih Altun, Director of Technology Research and Application Center Prof. Dr. Mustafa Soylak, founder of Khazar University, Chairman of the Board of Directors and Trustees Prof. Acad. Hamlet Isakhanli, Vice-rector for Educational Affairs Mahammad Nuriyev, Vice-rector for Administration and Student Affairs Isakhan Isakhanli, faculty deans, heads of departments and coordinator of the Chemical Engineering Department Dr. Rasul Muradi participated online. The meeting started with the welcome speech of the founder of Khazar University, Prof. Acad. Hamlet Isakhanli, and then the rector of Erciyes University, Prof. Dr. Fatih Altun, provided information on the overall activities of the university. Then, the head of the International Relations Department, Fatima Valiyeva, made a presentation about Khazar University.

Prof. Dr. Mustafa Soylak gave a presentation on Nano Bioanalytical Chemistry Center. After the speeches, a Memorandum of Understanding was signed between Khazar University and Erciyes University. Information was given about the nanotechnology laboratory, and Prof. Dr. Mustafa Soylak met with the faculty and doctoral students of the Faculty of Chemical Engineering. At the end of the meeting, there was an exchange of gifts. The first day of the program ended with a city tour and dinner for the



*Hamlet İsaxanlı*

üçün şəhər turu və şam yeməyi ilə başa çatıb.

Növbəti gün qonaqların "Dünya" məktəbinə turu təşkil olunub ki, burada da onlar kitabxana, sinif otaqları və laboratoriyalarla tanış olduqdan sonra Nailəxanım muzeyinə ekskursiyada iştirak ediblər.

"Dünya" məktəbi Azərbaycan və rus bölmələrinin direktoru Mərufə Mədətli, Azərbaycan və rus bölmələrinin sosial fəaliyyətlər üzrə direktor müavini Dilarə İsgəndərzadə, Xəzər Universiteti Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Pərvin Kərimova qonaqlara fəaliyyət istiqamətləri barədə ətraflı məlumat veriblər.

Xəzər Universitetinin Nərimanov kampusuna səfərdə isə qonaqlar dərs prosesi ilə tanış olublar.

guests.

The next day, a tour to Dunya School was organized for the guests, where they got acquainted with the library, classrooms and laboratories, and then took part in an excursion to the Nailekhanim museum.

Marufa Madatli, director of Azerbaijani and Russian divisions of "Dunya" school, Dilara Isgenderzade, deputy director for social activities of the Azerbaijani and Russian divisions, Parvin Karimova, deputy dean of the School of Humanities, Social Sciences and Education gave detailed information to the guests on the directions of activities.

During the visit to the Narimanov campus of Khazar University, the guests entered the classrooms and got acquainted with the teaching process.



*Mustafa Soylak* *Mərufə Mədətli*

## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




# AKADEMİK İSA HƏBİBBƏYLİNİN "KİTABİ DƏDƏ QORQUD" EPOSU HEYDƏR ƏLİYEVDƏN – İLHAM ƏLİYEVƏ" KİTABI İŞIQ ÜZÜ GÖRÜB

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin "Kitabi Dədə Qorqud" eposu Heydər Əliyevdən – İlham Əliyevə" kitabı nəşr edilib. Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə ithaf olunan nəşr İnstitut Elmi Şurasının 5 dekabr 2023-cü il tarixli, 6 saylı qərarı ilə çap olunub.

"Kitabi-Dədə Qorqud" eposu haqqında söz" adlı ilk bölümlə başlayan tədqiqatın sonrakı fəsillərində "Kitabi-Dədə Qorqud"un Heydər Əliyevə qədərki əzablı yolunun xronikası", "Kitabi-Dədə Qorqud" eposu Heydər Əliyev epoxasında" və "Kitabi-Dədə qorqud"un taleyində İlham Əliyev mərhələsi, yaxud Azərbaycan Oğuznaməsinin əbədiyyəti" araşdırılır. Həmçinin "Dədə Qorqud təntənələri. Fotosalnamə" bölümündə çoxsaylı maraqlı şəkillər yer alıb.

Nəşrdə "Kitabi-Dədə Qorqud" eposunun sovet hakimiyyəti illərindəki qadağası fonunda müstəqillik dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin dastanın dünyaya və Azərbaycan xalqına yenidən tanıdılması, tədqiqi və nəşrində yeni tarixi mərhələnin yaradılması sahəsindəki xidmətləri geniş təhlil edilib qiymətləndirilir. Kitabda Prezident İlham Əliyevin də "Kitabi-Dədə Qorqud"un və eposun qəhrəmanlarının adlarının əbədiləşdirilməsi və dastanın dünya miqyasında təbliği istiqamətindəki çoxcəhətli fəaliyyətlərindən bəhs olunur.

Məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru, Dos. İsmixan Osmanlı olan kitab 124 səhifədən ibarətdir. Monoqrafiya "Elm" nəşriyyatında işıq üzü görüb.



# ƏDƏBİYYAT İNSTİTUTUNDA "ÖZBƏK VƏ AZƏRBAYCAN FİLOLOGİYASININ AKTUAL MƏSƏLƏLƏRİ" ADLI BEYNƏLXALQ KONFRANS

Ədəbiyyat İnstitutunda "Özbək və Azərbaycan filologiyasının aktual məsələləri" adlı beynəlxalq konfrans keçirilib.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli açaraq, Azərbaycan və Özbəkistanın dərin tarixi köklərə, ortaq milli-mədəni və mənəvi dəyərlərə, zəngin adət-ənənələrə mənsub dövlətlər olduğunu bildirib. Akademik İsa Həbibbəyli qeyd edib ki, ötən il Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti nümunəsi kimi qiymətləndirilir. Görkəmli özbək mütəfəkkiri Mirzə Uluqbəyin ömür yolundan, zəngin yaradıcılığından bəhs edən akademik İsa Həbibbəyli ədibin dövrünün görkəmli riyaziyyatçısı, astronomu olmaqla elmin, təhsilin inkişafına mühüm töhfələr verdiyini deyib. O, Nəsirəddin Tusi ilə Mirzə Uluqbəy arasındakı oxşar cəhətləri diqqətə çatdırıb, eyni düşüncəyə, amala və ideyalara malik hər iki şəxsiyyətin Türk dünyasına xidmət göstərdiyini söyləyib.

Azərbaycan-Özbəkistan elmi-ədəbi və mədəni əlaqələrinin inkişafında mühüm rolu olan müasir özbək ədəbiyyatının klassiki Maqsud Şeyxzadənin yaradıcılığından da danışan AMEA prezidenti ədibə həsr olunan "Maqsud Şeyxzadə və Azərbaycan" adlı monoqrafiyanın hazırlanmasının önəminə toxunub. Özbək dilində "Azərbaycan ədəbiyyatı: Qədimdən bugünədək", eləcə də Azərbaycan dilində "Özbək ədəbiyyatı: Qədimdən bugünədək" adlı kitabların hazırlanmasının zəruriliyini qeyd edib.

Sonra Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetinin professoru Nurbay Cabbarov "Türküstan cədid mətbuatında millət və milliyyət təlqini" mövzusunda məruzəsini təqdim edib.

Tədbirə onlayn qatılan Özbəkistanın Urgənc Dövlət Universitetinin prorektoru Zəfər İbrahimov iştirakçıları salamlayıb, konfransın işinə uğurlar arzulayıb.

Daha sonra Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya elmləri doktoru Almaz Ülvi Binnətova, Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin professoru İslom Yoqubov, Füzulişünaslıq sektorunun müdiri, filologiya elmləri doktoru, dosent Ataəmi Mirzəyev, Urgənc Dövlət Universitetinin Özbək filologiyası fakültəsinin dekanı, professor Gayipov Dilshod Qadambayevich, Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru Yaşar Qasımbəyli, Urgənc Dövlət Universitetinin əməkdaşı Əzəmət Primov, Özbəkistan Milli Universitetinin əməkdaşı Şəhla Hacıyeva və filologiya elmləri doktoru Salidə Şərifova məruzələrlə çıxış ediblər. Məruzələr ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.



*İsa Həbibbəyli, Sabah Kərküklü*

# "MƏHƏMMƏD FÜZULİ VƏ TÜRK DÜNYASI" ADLI ELMİ KONFRANS

Ədəbiyyat İnstitutunda "Məhəmməd Füzuli və Türk dünyası" adlı Beynəlxalq Elmi Konfrans keçirilib. Tədbirdə Özbəkistanın 7 ali təhsil müəssisəsinin, İraq-Azərbaycan Dostluq Cəmiyyətinin nümayəndələri, eləcə də AMEA-nın Gəncə Bölməsinin, Ədəbiyyat, Folklor və Dilçilik institutlarının əməkdaşları iştirak ediblər.

Elmi konfransı AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli açaraq, ölkə başçısının "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" 25 yanvar 2024-cü il tarixli Sərəncamına əsasən Akademiyada artıq "Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi" adlı beynəlxalq elmi konfransın keçirildiyini bildirib. O, Məhəmməd Füzulinin Azərbaycan xalqının dünya ədəbiyyatına bəxş etdiyi qüdrətli sənətkar olduğunu, Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutduğunu vurğulayıb.

Ümummilli Lider Heydər Əliyevin vaxtilə Füzuli irsinə yüksək qiymət verdiyini söyləyən alim qeyd edib ki, Ulu Öndər Türkiyə Böyük Millət Məclisindəki çıxışında demişdir: "Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Füzuli bizi yaşadaraq bu günlərə gətirib çıxarmışdır". Akademik İsa Həbibbəyli bildirib ki, Prezident İlham Əliyevin fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimindəki nitqində Türk birliyi haqqında fikirləri gələcək strategiyamızı müəyyənləşdirdi, yeni dövr üzrə prioritetləri aydın formada ortaya qoydu. O, Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə 3 cilddə "Türk xalqları ədəbiyyatı tarixi"nin hazırlanacağını diqqətə çatdırıb.

"Lirik şeirin bənzərsiz nümunələrini yaradan Füzuli orta əsrlərdə Türk dünyasında yaşayıb-yaratmış ən böyük sənətkarlar sırasındadır", - deyən akademik İsa Həbibbəyli şairin lirikasının təkrarsız olduğunu və Füzulinin lirik şeirin zirvəsini fəth etdiyini söyləyib. Onun sözlərinə görə, Füzulinin "Leyli və Məcnun" poeması Nizami Gəncəvi və Əlişir Nəvaidən sonra meydana çıxan və dünya poeziyasında məhəbbət mövzusunda qələmə alınan ən yaxşı əsərlərdəndir. O, görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun nəinki Azərbaycan, eləcə də müsəlman və Türk dünyasında ilk opera janrında olan əsərinin məhz Füzulinin "Leyli və Məcnun" poemasının motivləri əsasında qələmə alınmasının heç də təsadüfi olmadığını bildirib.

AMEA prezidenti diqqətə çatdırıb ki, Füzuli yaradıcılığında dini motivlər qırmızı xətt kimi keçir, bu xəttin mərkəzində isə Əhli-beyt sevgisi durur. Füzulinin qəzəllərində əks olunan eşqin mahiyyəti dini motivlər, söz ustadının Allaha olan sevgisi-ilahi eşq və digər məsələlər ətrafında şərh olunub. Ədibin "Hədiqətüs-süəda" əsəri onun dini düşüncə, iman və əqidə duyğularının bədii əksi kimi çox səciyyəvi bir əsərdir. Akademik İsa Həbibbəyli "Məhəmməd Füzuli və Türk dünyası" mövuzusunda keçirilən tədbirin əhəmiyyətini qeyd edib, elmi konfransın işinə uğurlar arzulayıb.

Sonra İraq Strateji Araşdırmalar Mərkəzinin direktoru, İraq-Azərbaycan Dostluq Cəmiyyətinin sədri professor Mutaz Muhyi Əbdülhəmid "Məhəmməd Füzuli və İraq ədəbi mühiti" mövzusunda məruzə ilə çıxış edib.

Tədbirdə AMEA-nın Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov, Moskvada yaşayan həmvətənimiz, professor Abuzər Bağırov, Özbəkistanın Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetinin professoru Nurbay Cabbarov, Urgenc Dövlət Universitetinin Özbək filologiyası fakültəsinin dekanı professor Dilshod Gayipov, Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin professoru İslom Yoqubov çıxış edərək, Türk dünyasının ortaq şairi Füzuli ya-

radıcılığının müxtəlif məqamlarına toxunublar.

Ədəbiyyat İnstitutunun Füzulişünaslıq sektorunun müdiri, filologiya elmləri doktoru, Dos. Ataəmi Mirzəyev "Məhəmməd Füzulinin Türk ədəbiyyatına təsiri" və aparıcı elmi işçi filologiya üzrə fəlsəfə doktoru, dosent Zəkulla Bayramlı "Məhəmməd Füzuli və klassik Cağatay ədəbiyyatı" mövzusunda məruzələrində bir sıra maraqlı faktları diqqətə çatdırıblar. Məruzələrdə böyük Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin dünya lirik poeziyasının parlaq simalarından olması, onun ölməz qəzəllərinin bu gün də aşiqlərin qəlbini fəth etməsi, məhəbbət, xeyirxahlıq, humanizm hissləri aşılaması qeyd olunub.

Sonra İraq Mədəniyyət Nazirliyi nəzdində Türkman Mədəniyyət Mərkəzinin sədri, "Türkman mədəniyyəti" jurnalının baş redaktoru doktor Sabah Kərküklü "Füzuli Bağdadi və tarixçilərin mübahisəsi" məruzəsini təqdim edib. Məruzəçi bildirib ki, İraq Əlyazmalar Mərkəzi tərəfindən "Nəvainin "Müəmma" traktatına Füzulinin şərhi" adlı əlyazma nüsxəsi aşkarlanıb. Əlişir Nəvainin əsərinə Füzuli tərəfindən yazılan bu şərh 1554-cü ildə qələmə alınıb.

Tədbir iştirakçıları şairin Füzuli meydanındakı abidəsini də ziyarət ediblər.

# ASİF RÜSTƏMLİNİN "CÜMHURİYYƏT MƏFKÜRƏSİ" KİTABI ÇAP OLUNUB




AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, professor Asif Rüstəmlinin "Cümhuriyyət məfkürəsi" kitabı çap olunub.

Kitabın elmi redaktoru və "Mənbəşünas hünəri" adlı ön sözünün müəllifi AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir. Tərtib edəni Türkiyə Cümhuriyyəti Fırat Universitetinin əməkdaşı Növrəstə Rüstəmlidir.

672 səhifəlik kitab müəllifin son 10 ildə beynəlxalq elmi sistemlərə daxil olan nüfuzlu jurnallarda, dövri mətbuat orqanlarında, məcmuələrdə nəşr edilmiş elmi və elmi-publisistik məqalələr toplusundan ibarətdir. "Elm və təhsil" nəşriyyatında çap olunan kitab arxiv materialları, məxfi sənədlər əsasında yazılmış əsərlərin əksəriyyəti faktoloji yeniliyi, təhlil və dəyərləndirmə fərqliliyi ilə seçilir.

Toplu "Siyasətin siqləti və qüdrəti", "Cümhuriyyət məfkurəsi", "Elm məbədgahları", "C.Cabbarlı irsindən araşdırmalar", "Milli mətbuat tariximizdən", "Milli ədəbiyyatımızın klassikləri", "Ədəbi portretlər" başlıqlı yeddi bölümdən ibarətdir.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*



# ŞAHMAT EHTİRASI

**Hamlet İsaxanlı**

*Əvvəli jurnalın 437-ci (mart 2024-cü il) nömrəsində*

## Şahmat Əndəlüs və Avropaya yayıldı

*(Bu başlıq altındakı yazı yenidən işlənmişdir)*

Şahmat Avropaya əsasən Əndəlüs vasitəsilə, qismən də İtaliya və Siciliya yolu ilə keçdi. "İspan debütü", "İtalyan debütü", "Siciliya müdafiəsi" Avropada meydana çıxan (bu gün də çox populyar olan) ilk şahmat debüt (başlanğıc) nəzəriyyələri oldu.

Tarixə qısa nəzər salaq. 711-ci ildə sərkərdə Tariq ibn Ziyadın başçılıq etdiyi 7 minlik ərəb-bərbər ordusu Atlantik okeanı ilə Aralıq dənizini birləşdirən boğazı gəmilərlə keçərək, İberia yarımadasına daxil oldu və ona qarşı çıxan qat-qat böyük Viziqot ordusunu məğlub etdi. Bu boğaz və onun sahilindıki dağ Tariq`in şərəfinə "Cəbəllütariq", yəni "Tariq dağı" adını aldı. 750-ci il ətrafında müsəlmanların hakimiyyəti indiki Portuqaliyanı (Portəgizi), şimal dağ zolağını çıxmaqla indiki İspaniyanı və bir qədər də indiki Fransanın cənubunu özünə daxil etdi. Paytaxtı Kordoba (Cordoba, ərəbcə: Qurtuba) olan bu dövlət tarixə Kordoba əmirliyi, Kordoba xəlifəliyi, Əndəlüs (əl-Əndəlüs) və başqa adlar ilə daxil oldu. Kordoba Avropanın çiçəklənən, ən inkişaf etmiş elmi-mədəni və iqtisadi mərkəzinə çevrildi. Fəlsəfə, riyaziyyat və astronomiya, tibb və aqrar mədəniyyət Əndəlüsdən Avropaya yayıldı. Əndəlüs memarlıq, musiqi və ədəbiyyata böyük töhfələr verdi. 13-cü əsrin ortalarına yaxın müsəlmanların hakimiyyəti zəiflədi, bir-birinin ardınca torpaqlarını itirdilər və 1492-ci ildə onların Pireney yarımadasındakı sonuncu dövləti – Granada Əmirliyi süqut etdi.




*Əndəlüs. Xəritə*

Şərqi İslamdan çıxıb (əslində qaçıb) Əndəlüsə üz tutan böyük musiqiçi Ziryab (?789 - ?857) 822-ci ildə öz yaxınları və yaradıcı heyəti ilə Əndəlüsə gəldi. Əndəlüsün mədəni həyatında böyük rol oynayan Ziryab özü ilə şahmat da gətirmişdi. Kordoba əmiri 2-ci Əbdül-Rəhman (792-852) şahmat oynamağı öyrəndi, şahmatı sevdi. Onun davamçısı əmir 1-ci Məhəmməd (823-886) isə tam şahmat vurğunu oldu. Deyilənə görə, əndəlüslü şair Məhəmməd ibn Əmmar (1031-1086) həm də güclü şahmatçı idi və o, Leon və Castile kralı 6-cı Alfonso (?1040-1109) ilə şahmat partiyasını udmuş və bununla Seville əmirliyini istiladan qorumuşdu (təbii ki, yalnız bir müddət). Müdrik Alfonso (Alfonso the Wise) kimi tanınmış 10-cu Alfonso`nun (1221-1284) himayəsi altında, 1283-cü ildə "Libro de los juegos" (ispanca: Oyunlar kitabı) adı ilə Toledo`da yazılmış kitab mərkəzdə şahmat olmaqla ağıl və bəxt (şans, ehtimal) üzərində qurulan oyunlar və uyğun miniatürlərdən ibarət idi. 97 perqament səhifəli bu kitab Avropanın müsəlmanlardan öyrəndiyi və oyunlar haqqında ilk kitab sayılır.

Şahmatın Avropaya yayılması işində, yəqin ki, Xaç (Səlib) savaşları da rol oynadı.



*"Libro de los juegos" kitabından miniatür: müsəlman və xristian şahmat oynayırlar.*
*https://games.rengeekcentral.com/prblms/F27V.html*

***

Avropada fil yoxdu – nə orduda, nə də təbiətdə. Əvəzində, qəribə səslənsə də, kilsə vardı (və o, güclü idi). Avropada şahmat filini din xadimi yepiskopla (bishop) əvəz etdilər. Şərqdə isə, o cümlədən, Rusiyada şahmat fili yaşadı, hərçənd ki, Rusiya ərazisində də filə, Yer üzərindəki bu ən böyük heyvana rast gəlinmirdi. Elə ki, zooparklar təşkil olundu, təbiətdə fillərin yaşamadığı ölkələrdə də filləri gözlə görmək imkanı yarandı.

Avropada döyüş arabası qala ilə, rəmzi olaraq qala sütunu ilə əvəz olundu (rook, bu, şərqdəki rüx/rux - döyüş arabası sözünə də bənzədi). Türkiyədə bu gün də şahmatdakı topa kale deyilir. Rusiya və onun yaxın ətrafındakı yerlərdə qala əvəzinə top sözü daxil edildi; savaşda toplar mühüm rol oynayırdılar. Avropalılar şahın, monarxın yanında vəziri deyil,

kraliçanı, "birinci ledi"ni qoydular; kraliça hər zaman kralın yanında deyilmi?! Sarayda, həyatda, intriqalarda və dolayı yolla olsa da, savaşda xanımların rolu böyükdür, onlar bir sıra hallarda baş rol oynaya bilirlər... Şahmat taxtasında xanaları iki fərqli rəngə, əsasən ağ və qara və ya açıq və tünd rənglərə boyadılar.

11-ci əsrdə Avropada yüksək zümrələrdə şahmat oynamağa başladılar, 12-ci əsrdə isə şahmat geniş yayıldı. Şərqdə kübarların təhsil və təlimində olduğu kimi Avropada da cəngavərlər oxumaq, yazmaq və hesabla yanaşı bilməli, öyrənməli olduqları bacarıq və qabiliyyətlər arasında şahmat da vardı; öyrənməli digər qabiliyyətlər, əsasən, at sürmə, ox atma, ovçuluq, üzmə, yumruqlaşma və şeir yazma idi.

15-ci əsrin sonlarında və 16-cı əsrin əvvəllərində Avropada şahmat qaydalarının dəyişməsi şahmatı daha dinamik və sürətli oyuna çevirdi. Vəzirin bir və filin iki xana deyil, uzun gedə bilmələri, qala qurmaq və keçiddə vurmaq kimi qaydalar strategiya və taktikanı mühüm dərəcədə inkişaf etdirdi. Qalaqurma əməliyyatı şahı qalanın içinə aparmaq, qalada qorumaq deməkdir. Qalaqurma və pat şahmat tarixində oyunun təkmilləşdirilməsi yolunda daxil edilib, yəni, həyatdan gəlməyib. Portuqaliyalı Pedro Damiano (1480-1544) və ispaniyalı Ruy Lopez`in (?1530-?1580) şahmat dərslikləri (uyğun olaraq 1512, 1561-ci illər) əsas Avropa dillərinə tərcümə olunub, şahmatın öyrənilməsi və yayılmasında böyük rol oynadılar.

## Buyurun tanış olun: Emanuel Lasker

Şahmatın təbiəti, şahmat mübarizəsi barədə söhbətimizə böyük şahmatçı, riyaziyyatçı və filosof Emanuel Lasker`i (1868-1941) dəvət edəcəm. E. Lasker universal şahmatçı idi, şahmat ustalığı ilə yanaşı, rəqibin şahmat üslubunu, psixologiyasını nəzərə almağı da bacarırdı. İlk rəsmi dünya çempionu Wilhelm Steinitz üzərində qələbə çalan E. Lasker şahmat üzrə dünya çempionu rütbəsini ən uzun müddət - 27 il ərzində (1894-1921) saxlayan şəxs kimi də tarixə düşmüşdür. Lasker Berlin, Göttingen, Heidelberg universitetlərində təhsil alıb, riyaziyyat və fəlsəfə öyrənib. O, dahi David Hilbert`in (1862-1943) riyazi məktəbinin yetirməsi idi. Lasker 1902-ci ildə Erlangen`də riyaziyyat doktoru dərəcəsi aldı.



*Emanuel Lasker*

**Qeyd**. Lasker *polinomial halqa,* həmçinin *yığılan qüvvət sıraları* halqasını araşdırmış, bu halqanın hər *ideal*`ının sonlu sayda *ibtidai (primar) ideal*`ların kəsişməsi kimi göstərilə biləcəyini (every ideal can be decomposed as an intersection of finitely many primary ideals) isbat etmişdi (1905). *Primar ideal* anlayışının özünü də Lasker daxil etmişdi. Riyaziyyat tarixində ən böyük qadın – riyaziyyatçı sayılan Emmy Noether (1882-1935) bu Lasker teoremi`ni *Noether halqası* (Noetherian ring) üçün ümumiləşdirmişdi (1921); *Lasker-Noether teoremi* kommutativ cəbr`in (commutative algebra) ən fundamental kəşflərindən biri olmaqla cəbri həndəsə`də (algebraic

geometry) mühüm rol oynayır (Oskar Zariski, Pierre Samuel. Commutative Algebra. D. Van Nostrand Company INK, Princeton, New Jersey, 1958; see, Chapter IV. 4).

Lasker`in dünya çempionu olduqdan sonra şahmata diqqətini azaldıb riyaziyyatla ciddi məşğul olması, doktor elmi dərəcəsi alması və 1905-ci ildə tarixdə qalan güclü elmi nəticə əldə etməsi, zənnimcə, xüsusi diqqətə layiq hadisədir.



*Albert Einstein*

Lasker 1906-cı ildə nəşr etdirdiyi Kampf (Mübarizə /Struggle) adlı kitabında şahmat, işgüzarlıq (bisiness) və savaş daxil olmaqla rəqabət fəaliyyətlərinin (competitive activities) ümumi nəzəriyyəsini qurmağa cəhd etmişdi. O, daha üç siyasi və fəlsəfi kitabın, həmçinin, qardaşı ilə birlikdə yazdığı bir dram əsərinin müəllifidir. Lasker Einstein`in nisbilik nəzəriyyəsini təkzib etməyə yönələn məqalə də yazmışdı; o, öz mühakimələrində mütləq vakuumun mövcud olmadığını və bu səbəbdən işığın mütləq sabit ola bilməyəcəyini əsas götürürdü.

Dr. Jacques Hannak şahmatçı, riyaziyyatçı və filosof Emanuel Lasker`in yaradıcı həyatı barədə kitab yazmış (Berlin, 1952; ingiliscə nəşri: Emanuel Lasker: The Life of a Chess Master. Andre Deutsh, London, 1959), həmin kitaba giriş sözü yazan böyük A. Einstein dostunu – Laskeri sərbəst düşüncəli, çox müstəqil zəka sahibi kimi anmışdı: "Emanuel Lasker, şübhəsiz ki, son illərdə tanıdığım ən maraqlı insanlardan biri idi. Bu və sonrakı nəsillər üçün onun həyat hekayəsini yazanlara minnətdar olmalıyıq. Çünki bütün böyük insan problemlərinə ürəkdən maraq göstərən və eyni zamanda öz şəxsiyyətini misilsiz dərəcədə müstəqil tutan insanlar azdır". (Шахматы в СССР, 1967, № 7). Laskerin geniş yaradıcılığı haqqında almanca yazılmış iri həcmli kitab mövcuddur - (Richard Forster, Stefan Hansen, Michael Negele. Emanuel Lasker: Denker, Weltenburger, Schachweltmeister. Exzelsior Verlag, Berlin, 2009).

## Çağdaş şahmat dövrünün başlanması

E. Lasker şahmatın inkişaf yolu və təbiəti barədə gözəl fikirlər söyləmişdir. O, çağdaş şahmatın əsasən F-A. D. Philidor`la başladığı (1726-1795) fikrindədir. Philidor (Filidor) dövrünün ən güclü şahmatçısı olmuşdur. Lasker`ə görə "Plan qurmanın zəruriliyi fikrini ancaq 18-ci əsrin sonunda Hollandiya və İngiltərədə çıxış edən fransız Philidor irəli sürdü. Onun *piyadalar şahmatın canıdır* (*Pawns are the soul of chess*) ifadəsi buna işarədir" (Эмануил Ласкер. Учебник шахматной игры. Здравый смысл в шахматной игре. Калиниченко, 2021. с. 217). Doğrudan da, oyunun əvvəlində irəli sürülən piyada quruluşu oyunun gedişinə və taleyinə birbaşa təsir göstərir. Digər yandan, piyada oyunun ortasında, xüsusilə sonunda həlledici rol oynaya bilir, məsələn, piyada (əsgər, sadə vətəndaş) sona qədər gedib sərkərdə, yəni, vəzir və ya digər fiqura çevrilib oyunu bitirə bilir. Avropa şahmatında vəzir kraliçaya çevrildiyi üçün, ikinci kraliça almaq imkanı şahmatçıları çaşdırmış, hətta bir müddət vəzir (kraliça) durursa, ikincisini almaq olmaz, başqa fiqur almaq lazımdır kimi qayda daxil edilmişdi (bir zaman da son xəttə çatan piyadanın əvəzinə



*Adolf Anderssen*

ancaq vəzir alınırdı). Plan qurma işini La Bourdonnais (deyiliş: Laburdonne, 1795-1840) davam etdirdi.

Lasker şahmat strategiyasının gücünü, mənəvi keyfiyyətlərlə müqayisə edir və hər ikisinin istifadə edilən vasitələrlə deyil, nəticə ilə ölçüldüyünü deyir: "Daha mükəmməl strategiya və ya daha yüksək mənəvi keyfiyyətləri biz hadisənin başlanmasına qədər deyil, ancaq onun bitməsi



*Wilhelm Steinitz*

zamanı qiymətləndirə bilərik" (c. 287).

19-cu əsrdə ilk fransız şahmat jurnalı (Philidor, 1836) əmələ gəldi, 1840-cı illərdə ingilis və alman dillərində də şahmat jurnalları meydana çıxdı. Yeni şahmat kitablarının sayı çox artdı. Görkəmli şahmatçı və tarixçi Howard Staunton (1810-1874) 1851-də Londonda ilk beynəlxalq turniri (ümumiyyətlə, ciddi turniri) təşkil etdi; olimpiya üsulu ilə, yəni, iki oyunçudan uduzan tərəf yarışı tərk edir prinsipi ilə keçirilən turnirin qalibi riyaziyyatçı Adolf Anderssen (1818-1879) oldu.

**Qeyd.** L. Kieseritsky də riyaziyyat müəllimi idi, Anderssen ilə oyunları onun xeyrinə idi, lakin, Anderssen`ə uduzduğu "ölməz oyun" məşhur oldu. Maraqlıdır ki, həmin oyunu məhz L. Kieseritsky özü redaktoru olduğu "La Regence"-də dərc etmişdi.



*Paul Morphy*

1851-ci il beynəlxalq şahmat turnirindən sonra şahmat yarışlarında vaxt məhdudiyyətləri qoyulmağa, saatlardan istifadə edilməyə başlanıldı, iki düyməli (iki siferblatlı) saatlar ilk dəfə1883-cü ildə tətbiq olundu.

1857-ci ildə Amerikada Paul Morphy`nin (1837-1884) ulduzu parladı; bu şahmat ulduzu

1857-1859-cu illərdə A. Anderssen daxil olmaqla Avropanın güclü şahmatçıları üzərində çətinlik çəkmədən qələbə çaldı və... 22 yaşında şahmatdan tam aralandı. 1862-ci ildə yenə Londonda təşkil olunun beynəlxalq turnir hər iştirakçının digər bütün iştirakçılarla oynaması prinsipi ilə keçirildi; A. Anderssen qalib oldu. Şahmat aləmi 1862-ci ildən başlayaraq ulduzu parlayan Wilhelm Steinitz`in (1836-1900) üstünlüyünü gördü və qəbul etdi. Gələcəkdə rəsmi dünya çempionu adını da qazandı (1886-1894) və sonra bu adı E. Laskerə təhvil verdi.

Şahmat tarixinə aid qısa söhbətimizi burada dayandırıb şahmatın təbiəti, onun digər insan peşələri ilə müqayisəsi, peşəkar və həvəskar şahmatçılar və şahmat ehtirası barədə söhbətə davam edəcəm.

## E. Lasker`lə söhbət: şahmatın təbiəti

Şahmat fəlsəfəsində mübarizə, güc, dinamika, hesab, alqoritm, strategiya, taktika, məkan, zaman kimi anlayışlar mühüm rol oynayır. Fizika və digər bir sıra təbiət elmlərində olduğu kimi şahmatda da keçmiş, sanki, gələcəyi müəyyən edir, qarşı-qarşıya oturan hər iki şahmatçı oyun zamanı öz ürəyindən keçən gələcəyi qurmaq istəyir və bu yolda hər biri maraqların toqquşmasını, rəqibin gedişlərini nəzərə almalı olur.

Şahmat oyununun savaşa girən iki gerçək ordudan mühüm fərqlərindən biri şahmatda hər iki tərəfin tamamilə eyni orduya, gücə, piyada və fiqurlara malik olmasıdır. Bu səbəbdən gücləri bir-birinə yaxın olan peşəkar şahmatçılar arasında oynanılan şahmat partiyalarının böyük əksəriyyəti heç-heçə ilə nəticələnir. Heç-heçə müvazinətin, tarazlığın qorunması, harmoniyanın təntənəsidir. Bununla yanaşı, şahmat partiyalarının gözəlliyi qələbə əldə edilən oyunlarda daha parlaq görünür. Gözlənilməz gediş, uzağı görən plan və onun dəqiq yerinə yetirilməsi qələbə ilə yanaşı, şahmat ehtirasına qapılanlara estetik gözəllik bəxş edir. Lasker gözəlliyi şahmat yaradıcılığının, bu çoxölçülü fəaliyyət növünün yalnız bir ölçüsü kimi qəbul edir, əsl yaradıcı zəkanı müdrikliklə bağlayır: "Yaradıcılıq heç də mütləq gözqamaşdıran, incə və paradoksal olmamalıdır. Əlbəttə, yaradıcı zəkanın üzə çıxması bəzən gözqamaşdırıcı və gözəl olur, amma, əsl yaradıcı zəka effektli və incəlik təsəvvürlərindən uzaq olan özünə məxsus xüsusi, çox dərin və zərif müdrikliyə malikdir" (c. 226).

Şahmatın mürəkkəbliyi və gözəlliyi onun bəxtdən asılı olmadığını (zər atılmır) göstərir. Mövcud debütləri, piyada quruluşunu, standart sonluqları, şahmatçıların oyuna daxil etdikləri yenilikləri, mövcud vəziyyətin düzgün qiymətləndirilməsi kimi bilik və qabiliyyətləri içinə alan şahmat nəzəriyyəsi ilə yaxından tanış olmadan güclü şahmatçıya çevrilmək mümkün deyil. Bu, *şahmat elmdir, şahmat sistemli biliklərin öyrənilməsi, təhlili və təftişi üzərində qurulur* kimi fikrə, deyilişə gətirib çıxarır. Şahmatın nəhayətsizliyi, şahmatçı təxəyyülünün oynadığı rol, gözəl şahmat partiyasının iki müəllifi olan bir sənət əsərinə bənzəməsi fikri isə şahmat sənətdir, *şahmat incəsənətdir* hökmünə yol açır. Təbii ki, şahmat oyundur, yarış üçündür, yəni, *şahmat idmandır*. Beləliklə, şahmatda idman, elm və incəsənətin birləşdiyi görünür.

Şahmat partiyasında hər oyunçu üçün məhdud zaman ayrılmışdır, mümkün qədər qısa zamanda qərar qəbul etmək şahmatın məhz idman, yarış xarakterini nümayiş etdirir. Elm adamı, yazıçı, rəssam, musiqiçidə belə məhdudiyyət yoxdur. Elm, idman və sənəti özündə birləşdirən E. Lasker isə şahmatın hər şeydən əvvəl mübarizə olduğunu iddia edir; "insan zəkasına ən yüksək həzz verən məhz mübarizədir", şahmat nə elmdir, nə də incəsənət, o, mübarizədir. Lakin, hər halda, Lasker bu mübarizənin aparıldığı silahın elm, zəka və sənət tərəfini xüsusi vurğulayır: "bu mübarizədə elmi, bədii, saf zəka elementləri tam hökm sürür" (c. 380).

***

Lasker`in şahmat dünyası ilə elmi təfəkkür dünyasını birləşdirən yaradıcı şəxsiyyəti barədə A. Einstein`in fikri maraqlıdır. Einstein`ə görə Lasker`i səciyyələndirən əsas cəhət şahmat oyunu deyil, filosof və elm adamına xas olan düşüncə tərzi idi, Lasker iki dünya arasında yaratdığı harmoniyanı, həm də bu qovuşmanın yaratdığı ağır düyünü özündə əks etdirirdi: "Mənim üçün Lasker`in şəxsiyyəti, onun həyatverici, nikbin dünyagörüşünə baxmayaraq, faciə ilə boyanmışdı. Nəhəng əqli

gərginlik (onsuz heç kim böyük şahmatçı ola bilməz) şahmat oyunu ilə elə qovuşmuşdu ki, o, hətta başqa məsələlərlə məşğul olsa belə, heç vaxt bu oyun ruhundan tam azad ola bilməzdi. Hər halda mənə elə gəlir ki, şahmat onun üçün peşə idi, nəinki həyatın əsl məqsədi. Onun əsl can atdığı şey, görünür ki, elmi dərk etməyə yönəlmişdi. Lasker`i özünə cəlb edən məntiqi yaradıcılığa xas olan gözəllik idi, o gözəllik ki, kimə bir dəfə açılıbsa, o, bu sehrli dairədən yayınıb çıxa bilməz" (Шахматы в СССР, 1967, № 7). A. Einstein`in yaradıcı gözəllik barədə bu son fikri Laskerin yuxarıda gətirdiyimiz yaradıcı zəkanın dərin, zərif müdrikliyi fikri ilə səsləşir.

Digər dünya çempionu – Mixail Tal şahmatın çoxcəhətli təbiətindən söhbət açarkən bu təbiəti fərdin istəyi ilə əlaqələndirir, yəni, subyektivliyi əsas sayır: "Şahmat – dünyadır, əsl dünyaya çox bənzəyən, amma, hər halda, bu, əsl dünya deyil. Hər kəsin öz şahmatı var. Biri üçün bu incəsənətdir, sistemləşməni, məntiqi, dəqiq işlənmiş təhlili qiymətləndirənlər üçün, yəqin ki, elmdir, üçüncü üçün isə hər şeydən əvvəl mübarizə, ehtiras/azart və riskdir" ("Dauqava" jurnalı, № 11, 1986).

Şahmat partiyası iki tərəfin, qarşı-qarşıya oturub oynayan iki şəxsin birgə əsəridir, onlardan bir qalib, digəri məğlub olsa da. Hər şəxs digərindən asılıdır, biri gediş edir, digəri bu gediş nəticəsində ortaya çıxan vəziyyəti qiymətləndirir, nələr ola biləcəyini görməyə, hesablamağa çalışır və ən yaxşı saydığı gedişi edir; düşünmək və qərar qəbul etmək növbəsi digər şəxsə keçir və bu proses sona qədər davam edir. İki rəqib ortaq partiyanı, əsəri ortaya çıxarmaq üçün həm əməkdaşlıq edir, həm bir-birinə mane olurlar! Yazıçı, rəssam, musiqiçi və alim isə təkbaşına qərar qəbul etmək azadlığına malikdir. Lasker bir sıra görkəmli şahmatçıların (Réti, Nimtsoviç, Tartakover, Boqolyubov və Alyoxin`in) şahmatı incəsənət kimi səciyyələndirməsi ilə razılaşmır, "Şahmat partiyası mübarizə edən, qarşı-qarşıya duran iki, hətta görkəmli, şəxsiyyətin yaratdığı əsər olaraq, bir şəxsin məqsədəuyğun yaratdığı sənət əsəri kimi qeyri-məhdud azadlığa, sərbəstliyə malik deyil" (Lasker. c. 281).



*Mixail Tal*

Lasker`ə görə insan həyatındakı mübarizə ilə oyundakı mübarizənin mühüm fərqi, uyğun olaraq, birincidə şərti qaydaların yoxluğu, ikincidə – varlığıdır: "Həyatda dərk etdiyimiz mübarizə növləri oyun və idmandan hər iki tərəfi məhdudlaşdıran şərti qaydaların yoxluğu ilə fərqlənirlər",... "Məhdudluq və bitkinlik – oyun əlamətləridir, həyatda isə heç bir süni sərhədlər qoyulmayıb" (c. 289). Lakin, Lasker oyundakı sərhədlərin mümkün qədər geniş olmasını, məsələn, şahmatda qaydaların insanın əhatə edə bilməyəcəyi qədər geniş imkanlar verməsini, həmin oyunun həyata bənzəməsi əlaməti kimi qeyd edir. Digər tərəfdən, qədimdə şahmat savaş örnəyi kimi yaradıldığına görə şahmatın həyatla bənzərliyi çoxdur (c. 290), hərçənd ki, oyunun təbiətindən irəli gələn çoxsaylı yeni qaydaların daxil edilməsi onun həyatı tam əks etdirməsinə imkan vermir.

*(Davamı var)*

# "AZERONLİNE LTD" BM-Ə YENİ RƏHBƏR TƏYİN OLUNUB



Azərbaycanda fəaliyyət göstərən ilk İnternet provayder şirkətlərindən biri olan "Azeronline Ltd" Birgə Müəssisəsinin (BM) idarəetmə strukturunda dəyişiklik olmuşdur. Xatırladaq ki, "Azeronline LTD" BM 1999-cu ildə "Azercell Telekom" tərəfindən təsis edilib, onun törəmə şirkətidir.

2024-cü ilin aprel ayından etibarən "Azeronline Ltd" BM-in baş müdiri vəzifəsinə Kənan Elxan oğlu Məsumov təyin edilmişdir.

Telekommunikasiya sahəsində 15 ildən artıq təcrübəyə malik olan Kənan Məsumov son 3 ildə sabit internet biznesinin idarə edilməsi sahəsində müxtəlif rəhbər vəzifələrdə fəaliyyət göstərmiş, "Azerconnect" şirkətində Kommersiya direktoru və "Bakı Telefon Rabitəsi" MMC-də Baş direktorun müşaviri vəzifəsini icra etmişdir.

Kənan Məsumov 2005-2011-ci illərdə Xəzər Universitetində Beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə bakalavriat pilləsini bitirib. ABŞ-ın Berkşir İcma Kollecində də təhsil almışdır. Hazırda dünyanın aparıcı biznes məktəblərindən biri sayılan Birləşmiş Krallığın Uorvik Biznes Məktəbində Biznesin idarə edilməsi üzrə magistr təhsilini davam etdirir.

Saytlar bu barədə xəbər yayımlayıb:

# NEW HEAD APPOINTED TO "AZERONLINE LTD" JV

The management structure of "Azeronline Ltd" Joint Venture (JV), one of the first Internet provider companies operating in Azerbaijan, has changed. Note that "Azeronline LTD" JV was founded in 1999 by "Azercell Telecom", it is its subsidiary company.

From April 2024, Kanan Elkhan oghlu Masumov was appointed as the General Manager of JV "Azeronline Ltd". Kanan Masumov, who has more than 15 years of experience in the field of telecommunications, has worked in various management positions in the field of fixed internet business management for the past 3 years, served as the Commercial Director at "Azerconnect" and the Advisor to the General Director at "Baku Telefon Rabitesi" LLC.

Kanan Masumov graduated from Khazar University with a bachelor's degree in International Economic Relations (2005-2011). He also studied at Berkshire Community College, USA. He is currently pursuing a master's degree in Business Administration at the Warwick Business School in the United Kingdom, which is considered one of the world's leading business schools. The websites published news about it:

*https://1news.az/az/news/20240424034604827-Azeronline-LTD-BM-e-yeni-rehber-teyin-olundu*
*https://banker.az/azercellin-tor%C9%99m%C9%99-sirk%C9%99tin%C9%99-yeni-r%C9%99hb%C9%99r-t%C9%99yin-edilib/*
*https://qafqazinfo.az/news/detail/azeronline-ltd-bm-e-yeni-rehber-teyin-olundu-433959*

# “MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN ARXEOLOJİ SİLAH KOLLEKSİYASI” MÖVZUSUNDA SEMİNAR

# SEMINAR ON "ARCHAEOLOGICAL WEAPON COLLECTION OF THE NATIONAL MUSEUM OF AZERBAIJAN HISTORY"

Aprelin 19-da Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun təşəbbüsü və Milli Azərbaycan Tarixi Muzeyi “Arxeo” klubunun təşkilatçılığı ilə seminar keçirilib. Milli Azərbaycan Tarixi Muzeyində təşkil edilən seminarın mövzusu “Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji silah kolleksiyası” olub.

Məruzəçisi muzeyin Arxeologiya elmi fond şöbəsinin müdiri Dos. Nasir Quluzadə olan seminarda Xəzər Universiteti Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi ixtisasında təhsil alan II kurs tələbələri dinləyici qismində iştirak ediblər.

Seminarda tələbələrə silahların yaranması, dövrlər üzrə inkişafı, tipoloji təsnifatı, funksionallığı və onların savaşda tətbiqi haqqında geniş məlumat verilib. Həmçinin, tələbələrə arxeoloji qazıntılar zamanı tapılmış bəzi silah nümunələri ilə əyani şəkildə tanış olmağa da şərait yaradılıb. Tədbir tələbələrin “Müharibələr tarixi” fənnindən əldə etdikləri nəzəri biliklərin möhkəmlənməsinə xidmət edib və onların Azərbaycanın arxeoloji silahları ilə bağlı məlumatlarını genişləndirib.

Əyani dərs diskussiya şəraitində keçib və suallar cavablandırılıb.

On April 19, a seminar was organized by the initiative of Khazar University history and archeology department lecturer Orkhan Zamanov and the organization of the National Azerbaijan History Museum "Archeo" club. The topic of that seminar, organized in the National Museum of Azerbaijan History, was "Archaeological weapon collection of the National Museum of Azerbaijan History". In that seminar, the speaker of which was the head of the Museum's Archeology Scientific Fund Department, Assoc. Prof. Nasir Guluzade, the second year students of the School of Humanities, Education and Social Sciences of Khazar University attended as participants.

During the seminar, students received detailed information about the origins of weapons, their evolution over time, typological classification, functionality, and historical application in warfare. They also had the opportunity to visually examine some examples of weapons unearthed during archaeological excavations. The lecture-style presentation aimed to reinforce the students' theoretical understanding of the "History of Wars" subject and broaden their knowledge of Azerbaijan's archaeological weaponry.

The interactive nature of the session fostered lively discussion and captured the students' interest.



*Nasir Quluzadə*

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ “FACTA UNIVERSITATIS, SERIES: MATHEMATICS AND INFORMATICS” JURNALINDA

## ARTICLE BY MATHEMATICS DEPARTMENT PROFESSOR IN “FACTA UNIVERSITATIS, SERIES: MATHEMATICS AND INFORMATICS” JURNAL

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin “A representation formula for the resolvent of conformable fractional Sturm-Liouville operator” (“Uyğun fraksiyalı Şturm-Liuvill operatorunun rezolventi üçün təmsil düsturu”) adlı birinci müəllifi olduğu məqalə “Facta Universitatis, Series: Mathematics and Informatics” jurnalında dərc olunmuşdur (2024, Cild 39, № 1). Qeyd edək ki, “Facta Universitatis, Series: Mathematics and Informatics” jurnalı “Web of Science” bazasında indekslənib.

Məqalədə uyğun fraksiyalı Şturm-Liuvill operatorunun rezolventi tədqiq edilir. Bu operatorun rezolventi üçün inteqral təmsil düsturu əldə edilir.

The article " A representation formula for the resolvent of conformable fractional Sturm-Liouville operator", the first author of which is Bilander Allahverdiyev, professor of the Mathematics Department of Khazar University, was published in the journal of " Facta Universitatis, Series: Mathematics and Informatics " (2024, Vol. 39, No. 1). Note that the journal " Facta Universitatis, Series: Mathematics and Informatics " is indexed in the "Web of Science" database.

The article studies the resolvent of the conformable fractional Sturm-Liouville operator is considered. An integral representation for the resolvent of this operator is obtained.

*http://casopisi.junis.ni.ac.rs/index.php/FUMathInf/article/view/11619*
*http://casopisi.junis.ni.ac.rs/index.php/FUMathInf/index*

## PSİXOLOGİYA DEPARTAMENTİ ƏMƏKDAŞLARININ MƏQALƏSİ “JOURNAL OF EDUCATION AND TRAINING STUDIES” JURNALINDA

## ARTICLE BY PSYCHOLOGY DEPARTMENT STAFF IN "JOURNAL OF EDUCATION AND TRAINING STUDIES"

Xəzər Universitetinin Psixologiya departamentinin müəllimləri – psixologiya üzrə fəlsəfə doktoru Maarif Məmmədov, Anar Babayev və Xəzər Psixoloji Xidmət Mərkəzinin psixoloqu Mirsadiq Muxtarovun həmmüəllifi olduqları “Examining the Psychometric Properties of the Adolescent Students' Basic Psychological Needs at School Scale for the Azerbaijani Sample” (“Məktəbli yeniyetmələrin əsas psixoloji ehtiyaclarının müəyyən olunması şkalasının Azərbaycan dili və mədəniyyətinə adaptasiyası”) adlı məqalə “Journal of Education and Training Studies” jurnalında (2024, cild 12, № 2) dərc edilib.

Məqalədə məktəbli yeniyetmələrin əsas psixoloji ehtiyaclarını qiymətləndirmək məqsədilə hazırlanmış “Məktəbli yeniyetmələrin əsas psixoloji ehtiyaclarının müəyyən olunması şkalası”nı ("The Adolescent Students' Basic Psychological Needs at School Scale (ASBPNSS)" Azərbaycan məktəbliləri üçün standartlaşdırmaq və adaptasiya etməklə əlaqədar aparılmış tədqiqatdan və əldə edimiş nəticədən bəhs olunur. Belə ki, 12-17 yaş arasında 505 şagird üzərində şkalanın psixometrik xüsusiyyətləri qiymətləndirilib və Azərbaycanda istifadə üçün uyğun olduğu müəyyən edilib.

Qeyd edək ki, “Journal of Education and Training Studies” 2013-cü ildən nəşr olunmağa başlayan beynəlxalq jurnaldır.

The article “Examining the Psychometric Properties of the Adolescent Students' Basic Psychological Needs at School Scale for the Azerbaijani Sample” co-authored by the lecturers of the Department of Psychology at Khazar University-PhD in psychology Maarif Mammadov, Anar Babayev and psychologist of Khazar Psychological Service Center Mirsadig Mukhtarov, was published in “Journal of Education and Training Studies”( 2024, vol.12, № 2) .

The article presents research on the "Adolescent Students' Basic Psychological Needs at School Scale (ASBPNSS)," aimed at assessing the psychological needs of school teenagers. It discusses the research and the results obtained in connection with standardization and adaptation for Azerbaijani schoolchildren. Thus, the psychometric properties of the scale were evaluated on 505 students between the ages of 12 and 17 and it was determined that it is suitable for use in Azerbaijan.

Note that "Journal of Education and Training Studies" is an international journal that has been published since 2013.

*https://redfame.com/journal/index.php/jets/article/view/6545*

# VROTSLAV UNİVERSİTETİNİN VƏ EDUCONS UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ



*Jovana Kisin, Jelena Jesiv, Maciej Cesarz*

# REPRESENTATIVES OF WROCLAW UNIVERSITY AND EDUCONS UNIVERSITY AT KHAZAR UNIVERSITY

Aprelin 15-19-da Polşanın Vrotslav Universitetinin prorektoru Maciej Cesarz, Serbiyanın Educons Universitetinin əməkdaşları Jovana Kisin və Jelena Jesiv Erasmus+ İşçi heyətinin mübadilə proqramı (Erasmus KA171) çərçivəsində Xəzər Universitetində səfərdə olublar.

Proqramın ilk günü Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Aygün Verdiyeva, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Orxan Vəliyev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, koordinatoru Arzu Bədəlova görüşdə iştirak ediblər. Arzu Bədəlova tərəfindən Xəzər Universitetinin ilkin məlumat xarakterli təqdimatı göstərilib.

Proqrama uyğun olaraq Arzu Bədəlovanın müşayiəti ilə Xəzər Universitetini daha yaxından tanıtmaq məqsədilə qonaqlara kiçik kampus turu təşkil olunub. Tur çərçivəsində kitab-

On April 15-19, Maciej Cesarz, vice-rector of Wroclaw University in Poland, Jovana Kisin and Jelena Jesiv, employees of Educons University of Serbia, visited Khazar University as part of the Erasmus + Staff exchange program (Erasmus KA171).

On the first day of the program, Jeyhun Mammadov, dean of the School of Economics and Management of Khazar University, Raziya Isayeva, director of the Development Office, Aygun Verdiyeva, deputy dean of the School of Humanities, Education and Social Sciences, Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy, Fatima Valiyeva, head of the International Relations Department, coordinator Arzu Badalova participated in the meeting. Arzu Badalova provided an introductory presentation about Khazar University.

Following the program schedule, Arzu Badalova led a tour of the campus to give the guests a closer look at Khazar University, including visits to the library, laboratory, and Nailekhanim

xana, laboratoriya və Nailəxanım Mədəniyyət Mərkəzinə baxış keçirilib və qonaqlara görkəmli pedaqoq Nailəxanım İsayevanın həyat və fəaliyyətini əks etdirən eksponatlar haqqında ətraflı məlumat verilib.

Proqramın ikinci günü Serbiyanın Educons Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin nümayəndəsi Jovana Kisin və İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva tərəfindən Erasmus+ KA1 və KA2 layihələri istiqamətində təcrübə mübadiləsi aparılıb.



*Raziyə İsayeva, Aygün Verdiyeva*

Vrotslav Universitetinin prorektoru Maciej Cesarz`un proqrama uyğun olaraq Xəzər Universitetinin tədris işləri üzrə prorektoru Məhəmməd Nuriyevlə görüşü və davamında tələbələrə Avropa Birliyi sərhəd idarəetmə siyasəti mövzusunda mühazirəsi baş tutub.

Proqramın növbəti günlərində Jovana Kisin tərəfindən keyfiyyətin təmini və Jelena Jesiv tərəfindən makroiqtisadiyyat fənləri istiqamətində tələbələrə mühazirələr oxunub.



*Rahil Dadaşlı*

Culture Center, where detailed information about exhibits on the life and activities of Nailekhanim Isayeva, a prominent educator, was provided.

On the second day of the program, Jovana Kisin, representative of the International Relations Department of Educons University of Serbia, and Raziya Isayeva, director of the Development Office, exchanged experiences of both universities in the direction of the Erasmus + KA 1 and KA2 projects.

Wroclaw University vice-rector Maciej Cesarz had a meeting with Khazar University vice-rector for Educational Affairs Mahammad Nuriyev in accordance with the program, followed by a lecture on European Union border management policy to the students of political sciences. On the following days of the program, lectures were given to students in the direction of Quality Assurance by Jovana Kisin and Macro Economics by Jelena Jesiv.

EDUCONS UNIVERSITY

# SERBİYALI PROFESSOR SEMİNAR KEÇİRİB

Beynəlxalq əlaqələr şöbəsi ilə İqtisadiyyat və menecment departamentinin birgə təşkilatçılığı ilə 2024-cü il aprelin 17-də Xəzər Universitetində Educons Universitetinin professoru Jovanna Kisin tərəfindən seminar keçirilib.

Jovanna Kisin "Strateji idarəetmədə müasir yanaşmalar və konsepsiyalar" (Contemporary approaches and concepts in Strategic Management) mövzusunda tələbələrə geniş məlumat verib. Seminarda tələbələrlə interaktiv şəkildə müasir yanaşmaların tətbiqi sahəsində müzakirələr aparılıb. Həmçinin, professor Jovanna Kisin Serbiya nümunəsində müxtəlif məsələləri diqqətə çatdırıb.

# SERBIAN PROFESSOR CONDUCTS SEMINAR

On April 17, Professor Jovanna Kisin from Educons University conducted a seminar at Khazar University in collaboration with the Department of International Relations and the Department of Economics and Management.

The seminar focused on "Contemporary Approaches and Concepts in Strategic Management," providing students with comprehensive insights into the subject matter. Interactive discussions were held during the seminar, allowing students to engage with modern approaches in the field. Also, Professor Jovanna Kisin drew attention to various issues in the example of Serbia.



*Jovanna Kisin*



# EDUCONS UNİVERSİTETİNİN PROFESSORUNUN SEMİNARI

# PROFESSOR OF EDUCONS UNIVERSITY CONDUCTS SEMINAR



*Jelena Jesiv*

Aprelin 18-də Beynəlxalq əlaqələr şöbəsi ilə İqtisadiyyat və menecment departamentinin birgə təşkilatçılığı ilə Educons Universitetinin professoru Jelena Jesiv`in Xəzər Universitetində "Yaşıl iqtisadiyyat-cəmiyyətin rifahı və planetin sağ qalması üçün yeni sosial- iqtisadi fəlsəfə" mövzusunda seminarı keçirilib.

Seminarda həddindən artıq istehlakın qlobal zərərindən və Yaşıl İqtisadiyyatın faydasından interaktiv olaraq söhbət aparılıb. Həmçinin, professor Jesiv Serbiyanın bu mövzuda atdığı addımlar barədə danışıb. Görüşdə tələbələr Yaşıl İqtisadiyyat və cəmiyyətin rifahı ilə əlaqədar fikir mübadiləsi aparıblar.

On April 18, a seminar on " Green economy - A New Socio-Economic Philosophy for the Well-being of Society and the Survival of the Planet " was held at Khazar University by Professor Jenela Jesic of Educons University, jointly organized by the Department of International Relations and the Department of Economics and Management.

The seminar discussed interactively the global damage of excessive consumption and the benefits of Green Economy. Professor Jesic also spoke about the steps taken by Serbia in this regard. At the meeting, students actively exchanged perspectives on green economy principles and their implications for societal welfare.



# DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ DİSSERTASİYA İŞİNİ MÜDAFİƏ EDİB

# DEPARTMENT OF LANGUAGES AND LITERATURES LECTURER SUCCESSFULLY DEFENDS PHD DISSERTATION

Aprelin 18-də Azərbaycan Dillər Universitetində Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi Yeqzar Cəfərlinin "Den Braun`un bədii mətnlərində gerçəklik və onun postmodernist strukturu ("Da Vinçi şifrəsi", "Cəhənnəm", "Mələklər və şeytanlar" romanları əsasında)" adlı dissertasiya işinin müdafiəsi keçirilib.

Dissertantın müvafiq sənədləri 5718.01 Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat) ixtisası üzrə filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsinin alınması üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim olunub.

Dissertasiyanın mövzusu müasir ABŞ yazıçısı Den Braun`un romanlarında gerçəklik və onun postmodern strukturu problemlərinə həsr olunub. Tədqiqatçı mövzunu sosial, alternativ və postmodern gerçəklik şəklində üç istiqamətə bölmüş, "Den Braun bədii üçbucağı" adlı konseptual düstur müəyyən etmişdir.

Yeqzar Cəfərlinin elmi işi üzrə 6 məqaləsi, 8 konfrans materialı dərc olunub.

On April 18, Yegzar Jafarli, a lecturer of the Department of Languages and Literatures, defended his dissertation entitled "Reality in Dan Brown's Fictional Texts and Its Postmodernist Structure (Based on the Novels Da Vinci Code, Hell, Angels and Demons)" at Azerbaijan University of Languages.

The applicant's relevant documents were submitted to the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan for the degree of Doctor of Philosophy in Philology, specializing in 5718.01 World Literature (English literature).

The dissertation explores the themes of reality and its postmodern structure in the novels of contemporary American writer Dan Brown, categorizing them into social, alternative, and postmodern realities, and introducing a conceptual framework termed "Dan Brown's artistic triangle".

6 articles and 8 conference materials were published on the applicant's scientific work.

# NEFTÇİ GEOLOQLAR CƏMİYYƏTİNİN NÖVBƏTİ KONFRANSI




*Elvin Əhmədov (ANGC), Grigorii Penkov, Arif Rüstəmov*

Xəzər Universiteti Neft mühəndisliyi departamentinin 4 tələbəsi 2024-cü il aprelin 20-də Azərbaycan Neftçi Geoloqlar Cəmiyyətinin (ANGC) təşkil etdiyi konfransda iştirak ediblər.

Konfransda bakalavr pilləsinin tələbələri Elvin Əlizadə "Marsda smeltitlərin stabilliyi", Fatimə Paşazadə isə "Marsda Gale kraterinin çöküntü mənşəyi" mövzusunda, magistr tələbələri Arif Rüstəmov "Neft hasilatının uzunmüddətli proqnozlaşdırılması: lay simulyasiya modellərinin müqayisəli təhlili və maşın öyrənmə yanaşmaları", Məsud Babayev isə "Ağır neftlərin istismar prosesinin ptimizasiyası" mövzusunda çıxış etmişlər.

Tələbələrin təqdim etdiyi mövzular ANGC və münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Arif Rüstəmov təqdim etdiyi mövzu ilə I yerə, Fatimə Paşazadə isə II yerə layiq görülmüşdür.

Qeyd edək ki, Arif Rüstəmovun və Məsud Babayevin elmi rəhbəri Dr. Grigorii Penkov, Elvin Əlizadə və Fatimə Paşazadənin elmi rəhbəri isə Dr. Elşən Abdullayevdir.

# NEXT CONFERENCE OF SOCIETY OF PETROLEUM GEOLOGISTS

On April 20, 4 students of Khazar University Petroleum Engineering Department participated at the conference organized by Azerbaijan Society of Petroleum Geologists ( ASPG).

Undergraduate students Elvin Alizade spoke about "Stability of Smaltites on Mars" and Fatima Pashazade made a speech on "Sediment origin of Gale crater on Mars". Master student's Arif Rustamov talked about "Long-term forecasting of petrol production: Comparative anlysis of reservoir simulation models and machine learning approaches" and Masud Babayev spoke on "Optimization of Heavy Oil Production Process".

The topics presented by our student were highly appreciated by Azerbaijan Society of Petroleum Geologists and jury.

With the topic he presented, Arif Rustemov took first place and Fatima Pashazade was awarded the 2nd place.




*Fatimə Paşazadə, Elşən Abdullayev*



## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜƏLLİMİ BEYNƏLXALQ KONFRANSDA

Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Vasif Hüseynov aprelin 18-20-də İstanbul Universitetində Türkiyə Elmlər Akademiyasının təşkilatçılığı ilə "Qlobal transformasiyalar və Türkiyə" mövzusunda keçirilən beynəlxalq konfransda iştirakçı olub. Dr.Vasif Hüseynov "Avrasiya geosiyasətinin transformasiyası və Türk Dövlətləri Təşkilatının buradakı rolu" haqqında məruzə edib. O, Azərbaycan Milli Müdafiə Akademiyasından olan həmkarıyla birlikdə Azərbaycan və Türkiyənin bu mövzudakı rolu ilə bağlı məqaləsini də təqdim etmişdir.

## POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT LECTURER AT INTERNATIONAL CONFERENCE

Vasif Huseynov, a lecturer of the Department of Political Sciences and Philosophy, participated in the international conference on "Global Transformations and Türkiye" hosted by the Turkish Academy of Sciences at Istanbul University on April 18-20. During the conference, Vasif Huseynov delivered a presentation entitled "Eurasian Geopolitical Transformation and the Significance of the Turkic States Organization." Additionally, alongside a colleague from the Azerbaijan National Defense University, he also presented an article examining the roles of Azerbaijan and Türkiyr in this context.

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ ÖZBƏKİSTANDA

## LECTURER OF LANGUAGES AND LITERATURES DEPARTMENT IN UZBEKISTAN

Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya elmləri doktoru, Prof. Bədirxan Əhmədli 2024-cü il aprelin 16-22-də Özbəkistanda elmi ezamiyyətdə olmuşdur. Professor öncə Özbəkistanın Fərqanə vilayətində yerləşən Fərqanə Dövlət Universitetində Türkiyə və Özbəkistanın müxtəlif universitetlərindən alimlərin iştirakı ilə keçirilən Cədidlərə həsr olunmuş konfransda "İsmayıl bəy Qaspıralı və Azərbaycanda cədidçilər hərəkatı" mövzusunda məruzə ilə çıxış etmişdir.

Əvvəlcədən planlaşdırıldığına görə universitetin filologiya fakültəsinin I-IV kurs tələbələrinə və magistrantlara müxtəlif mövzularda mühazirələr oxumuşdur. Onun "Türk dünyasında modernləşmə hərəkatı", "Özbək cədidçiləri və Azərbaycan maarifçilərinin ortaq cəhətləri", "İsmayıl bəy Qaspıralının "Dildə, fikirdə, işdə birlik" formulu yeni dönəmdə", "Ədəbiyyat və repressiya: ədəbiyyata sovet

Prof. Badirkhan Ahmadli, a lecturer of the Department of Languages and Literatures of Khazar University, head of the Department of Azerbaijan-Asian Literary Relations of the Nizami Ganjavi Institute of Literature of ANAS, doctor of philological sciences, was on a scientific mission to Uzbekistan on April 16-22, 2024. The professor participated in the conference dedicated to Jadids held at Fergana State University, located in Fergana Province, Uzbekistan, and gave a speech on "Ismayil Bey Gaspirali and the movement of Jadids in Azerbaijan". Topics included "Modernization Movement in the Turkish World," "Shared Characteristics of Uzbek Modernists and Azerbaijani Intellectuals," and "The Formula of Unity in Language, Thought, and Work in a New Era" inspired by Ismayil Bey Gaspirali.

Lectures on "Literature and Repression: Examining Soviet Mechanisms of Literary Control" garnered significant interest from both students and graduate students. Scientists from Türkiye and various universities of Uzbekistan participated in the confe-



*Bədirxan Əhmədli*

nəzarət mexanizmlərinin gerçəklikləri" mövzularında mühazirələri tələbələr və magistrantlar tərəfindən maraqla qarşılanmışdır.

Prof. B.Əhmədli Özbəkistan Milli Universitetinin rektor yardımçısı Həmidulla Baltabayevin dəvətilə filologiya fakültəsində də "Türkçülüyün üçlü formulu" mövzusunda mühazirə oxumuş, mövzu ilə bağlı çoxlu sualları cavablandırmışdır.

rence.

At the invitation of Hamidulla Baltabayev, assistant rector of the National University of Uzbekistan, Prof. B. Ahmadli gave a lecture on "The Triple Formula of Turkism" at the Faculty of Philology. The lecture was received with interest by the faculty of the university, many questions were asked to the professor about the topic.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN PROFESSORU BEYNƏLXALQ KONFRANSDA

Aprelin 15-də İngilis dili və ədəbiyyatı departamentinin professoru Hüseynağa Rzayev "Silk Road Research Academy" ilə birgə təşkil olunmuş 4-cü Beynəlxalq CLIL (Məzmun və Dil İnteqrasiyalı Tədrisin Əsasları) Konfransında əsas məruzəçi kimi iştirak etmişdir. Konfrans Özbəkistanın Daşkənd şəhərindəki Dəqiq və Sosial Elmlər Universitetində baş tutub.

Hüseynağa Rzayev "Fənlərarası əlaqə vasitəsilə İngilis dilinin xarici dil kimi tədrisinin gücləndirilməsi" mövzusunda məruzə ilə çıxış edib. Konfransda dil və məzmun öyrənmənin inteqrasiyası, CLIL kontekstlərində qiymətləndirmə, CLIL siniflərində çoxdillilik və multikulturalizm, CLIL və inklüziv təhsil və s. kimi mövzular müzakirə olunub.

## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT PROFESSOR AT INTERNATIONAL CONFERENCE

On April 15, the professor of the English Language and Literature Department Huseynagha Rzayev participated as a keynote speaker in the 4th International CLIL Conference organized jointly with "Silk Road Research Academy". The conference took place at the University of Exact and Social Sciences in Tashkent, Uzbekistan.

Huseynagha Rzayev delievered a speech entitled "Enhancing Teaching EFL Through Interdisciplinary". The conference discussed the topics such as integrating language and content learning, assessment and evaluation in CLIL contexts, multilingualism and multiculturalism in CLIL classrooms, CLIL and inclusive education etc.

## KAHRAMANMARAŞ SÜTÇÜ İMAM UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 22-də Xəzər Universitetində Kahramanmaraş Sütçü İmam Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə qonaqlar – Kahramanmaraş Sütçü İmam Universitetinin rektoru Prof. Dr. Alptekin Yasim, rektor müavini Prof. Dr. Nuri Kahveci, ikinci rektor müavini Prof. Dr. Orhan Doğan, baş katib Ali Rıza Bekler, müəllim Hamiran Amirli, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, rektor Dos. İradə Xəlilova, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, fakültə dekanları və nümayəndələri iştirak ediblər.

Görüş Hamlet İsaxanlının giriş nitqi ilə başlayıb, sonra İradə Xəlilova və Alptekin Yasim universitetlərin ümumi fəaliyyəti barədə məlumat veriblər. Davamında Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva Xəzər Universiteti haqqında təqdimatla çıxış edib.

Çıxışlardan sonra Xəzər Universiteti ilə Kahramanmaraş Sütçü İmam Universiteti arasında memorandum imzalanıb və qarşılıqlı hədiyyə mübadiləsi olub

Görüş çərçivəsində Kahramanmaraş Sütçü



*Alptekin Yasim*



## KAHRAMANMARASH SUTCHU IMAM UNIVERSITY DELEGATION VISITS KHAZAR UNIVERSITY

On April 22, a meeting was held with the delegation of Kahramanmarash Sutchu Imam University at Khazar University. The meeting was attended by Prof. Dr. Alptekin Yasim, the rector of Kahramanmarash Sutchu Imam University, Prof. Dr. Nuri Kahveci, the vice-rector, Prof. Dr. Orhan Dogan, the second vice-rector, Ali Riza Bekler, the general secretary, Hamiran Amirli, the lecturer, as well as Prof. Acad. Hamlet Isakhanli,the rector Irada Khalilova, Isakhan Isakhanli, the vice rector for Management and Student Affairs, Alovsat Amirbeyli, the director of Public Relations and Media, faculty deans and representatives.

The meeting started with Hamlet Isakhanli's introductory speech, then Khazar University Rector Irada Khalilova and Kahramanmarash Sutchu Imam University Rector Prof. Dr. Alptekin Yasim gave information about the general activities of the universities. Then, the head of the International Relations Department, Fatima Valiyeva, delivered a presentation about Khazar University.

After the speeches, a memorandum was signed between Khazar University and Kahramanmarash Sutchu Imam University and




*Hamlet İsaxanlı*

gifts were exchanged.

As part of the meeting agenda, the rector and the delegation from Kahramanmarash Sutchu Imam University visited Dunya School, where they toured the library, classrooms, and laboratories before participating in an excursion to the Nailekhanim museum.

Marufa Madatli, the director of the Azerbaijan and Russian sections of the Dunya School, Aynur Hasanova, the head of the Dunya Kindergarten, Parvin Karimova, deputy dean of the School of Humanities, Education and Social Sciences of Khazar University, gave detailed information to the guests about their activities. During the visit to the Narimanov campus of Khazar University, the guests observed classrooms and got acquainted with the teaching process. The program concluded with a city tour and dinner arranged for the guests.

İmam Universitetinin nümayəndə heyətinin "Dünya" məktəbinə turu təşkil olunub. Burada onlar kitabxana, sinif otaqları və laboratoriyalarla tanış olduqdan sonra Nailəxanım muzeyinə ekskursiyada iştirak ediblər.

"Dünya" məktəbi Azərbaycan və rus bölmələrinin direktoru Mərufə Mədətli, Ana məktəbinin müdiri Aynur Həsənova, Xəzər Universiteti Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Pərvin Kərimova qonaqlara kompleksin fəaliyyət istiqamətləri barədə geniş məlumat veriblər.

Xəzər Universitetinin Nərimanov kampusuna səfərdə qonaqlar dərs prosesi ilə də tanış olublar.

Proqram qonaqlar üçün şəhər turu və şam yeməyi ilə başa çatıb.



*İradə Xəlilova* *Ali Rıza Bekler*



*"Dünya" məktəbində*




*Orxan Vəliyev*

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ MƏKTƏBLƏRDƏ TƏLİM KEÇİB

# HEAD OF POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT LEADS TRAINING AT SCHOOLS

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev aprelin 22-də Bakıdakı T. İsmayılov adına 6 saylı məktəb-liseydə, aprelin 23-də Bakıdakı 1 saylı tam orta məktəbdə, aprelin 26-da S.C.Pişəvəri adına Respublika humanitar fənlər gimnaziyasında yuxarı sinif şagirdlərinə təlim keçmişdir. Təlim Elm və Təhsil Nazirliyinin dəstəyi və "Bir" Könüllü Tələbə Təşkilatının təşkilatçılığı ilə 22 aprel - 30 may tarixlərində təşkil edilən "Milli Kimlik Məktəbi" layihəsi çərçivəsində baş tutmuşdur.

Layihənin məqsədi gənclər arasında milli kimlik şüurunun möhkəmlənməsinə töhfə verməklə yanaşı, onları radikal meyllərdən uzaqlaşdırmaq və milli kimliyin müxtəlifliklərin toplamından ibarət olduğu fikrini aşılamaqdır.

Dr. Orkhan Valiyev, the head of Political Sciences and Philosophy Department, conducted a training session for high school students at School-Lyceum No. 6, named after T.Ismayilov, in Baku (on April 22), in secondary school No. 1 ( on April 23), in the Republican Humanitarian Gymnasium named after S.J. Pishevari (on April26) . The training was part of the "National Identity School" project, running from April 22 to May 30, and was supported by the Ministry of Science and Education, as well as organized by the "Bir" Voluntary Student Organization.

The project aims to foster awareness of national identity among youth, deter radical inclinations, and instill the idea that national identity consists of the sum of diversities.






## ÇUKUROVA UNİVERSİTETİNİN PROFESSORU TƏLƏBƏLƏRƏ SEMİNAR KEÇİB

Aprelin 23-də Beynəlxalq əlaqələr şöbəsi və İqtisadiyyat və menecment departamentinin birgə təşkilatçılığı ilə Xəzər Universitetində Çukurova Universitetinin (Türkiyə) professoru Hakan Çifçi tərəfindən makroiqtisadi mövzuda seminar keçirilib.

Prof. Çifçi seminara dünyanın makroiqtisadiyyat tarixi haqqında məlumatla başlayıb. O, ölkələrdəki inflyasiya və işsizlik dərəcələrinə təsir göstərə bilən hökümətin pul siyasəti, həmçinin vergilər və dövlət xərcləmələri ilə bağlı fiskal siyasəti haqqında söhbətlər aparıb; gəlir, xərc, borc və investisiya arasında olan əlaqəni tələbələrlə bölüşüb. Görüşdə tələbələr interaktiv iştirak edərək, professorun verdiyi sualları cavablandırıblar.

## CHUKUROVA UNIVERSITY PROFESSOR HOSTS SEMINAR FOR STUDENTS

On April 23, a macroeconomic seminar was held by Professor Hakan Chifchi of Chukurova University (Türkiye) at Khazar University, jointly organized by the Department of International Relations and the Department of Economics and Management.

Professor Chifchi started the seminar with information about the history of world macroeconomics. He talked about a government's monetary policy, as well as fiscal policy related to taxes and government spending, which can affect inflation and unemployment rates in countries. The professor shared with the students the relationship between income, expenses, debt and investment. In the meeting, the students participated interactively and answered the questions asked by the professor.

## "POEZİYADA TƏBİƏTƏ MÜRACİƏT: KLASSİK YANAŞMA VƏ EKOPOETİKA" MÖVZUSUNDA AÇIQ DƏRS

## OPEN LECTURE ON "NATURE IN POETRY: CLASSICAL APPROACH AND COPOETICS"



*Xatirə Yusifova*



İqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik" ili elan edilmişdir.

Bu münasibətlə aprelin 23-də Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dos. Xatirə Yusifova tərəfindən "Poeziyada təbiətə müraciət: klassik yanaşma və ekopoetika" mövzusunda açıq dərs keçirilib.

To enhance international solidarity in the global fight against climate change, the President of Azerbaijan, in accordance with Article 109, Clause 32 of the Azerbaijani Constitution, issued an Order declaring 2024 as the "Solidarity for a Green World" year in Azerbaijan.

In pursuit of this goal, on April 23, Assoc. Prof. Khatira Yusifova, a faculty member of the Languages and Literatures Department, conducted an open lecture titled " Nature in Poetry: Classical Approach and Ecopoetics."

# "XƏZƏR"İN ƏMƏKDAŞLARI ERASMUS+ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ FİNLANDİYANIN JYVÄSKYLÄ UNİVERSİTETİNDƏ

# KHAZAR UNIVERSITY STAFF MEMBERS AT NIVERSITY OF JYVÄSKYLÄ, FINLAND, WITHIN ERASMUS+ PROJECT



*Səbinə Əlimərdanova, Xumar Məmmədova (Naxçıvan Dövlət Universiteti), Aytac Misgərli, Lyudmila Sotova*

Aprelin 22-24-də Xəzər Universitetinin koordinatoru olduğu "Azərbaycanda İnstitusional Repozitoriyalar Şəbəkəsi vasitəsilə Tədqiqat Potensialının İnkişaf Etdirilməsi (DIRNA)" adlı Erasmus+ layihəsi çərçivəsində Finlandiyanın Jyväskylä Universitetində təlim keçirildi.

Avropanın 3, Azərbaycanın 7 ali təhsil müəssisəsinin nümayəndələrinin qatıldığı təlimdə Xəzər Universitetinin Keyfiyyət Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli və ISBN üzrə koordinatoru Səbinə Əlimərdanova iştirak etdilər.

Jyväskylä Universitetində keçirilən təlimin əsas məqsədi Azərbaycanda tədqiqat nəticələrinin idarə edilməsinin təkmilləşdirilməsi, tədqiqat nəticələrinə açıq çıxışın asanlaşması, hamıya əlçatan institusional repozitoriyalar şəbəkəsinin yaradılmasıdır.

Tədbirdə həm Azərbaycan Universitetlərindən – (Xəzər Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Gömrük Komitəsinin Akademiyası, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti) , həm də Avropanın (L'Aquila Universiteti-İtaliya, İzmir Yüksək Texnologiya İnstitutu-Türkiyə) nümayəndələri iştirak ediblər.

From April 22 to 24, an educational tour was held at the University of Jyväskylä, Finland, within the framework of the Erasmus+ project "Development of Research Potential through the Network of Institutional Repositories in Azerbaijan (DIRNA)" coordinated by Khazar University.

Lyudmila Sotova, the head of Khazar University's Quality Assurance Center, Aytac Misgarli, deputy director of the Library Information Center, and Sabina Alimardanova, ISBN coordinator, participated in the program, joined by representatives from three European and seven Azerbaijani higher education institutions. The primary aim of the training conducted at the University of Jyväskylä is to enhance research results management in Azerbaijan, promote open access to research findings, and establish an inclusive network of institutional repositories.

Representatives from Azerbaijani universities (including Khazar University, Azerbaijan Technical University, Azerbaijan State Customs Committee Academy, Ganja State University, Nakhchivan State University, Lankaran State University, and Mingachevir State University) and European universuties (such as L'aquila University in Italy and Izmir Institute of High Technology in Türkiye) attended the event.

Təlimdə iştirakçılara Jyväskylä Universiteti tərəfindən universitetin kitabxanasının iş təcrübəsi, açıq elmi bazalar, tədqiqat məlumatlarının idarə edilməsi kimi mühüm istiqamətlərdə təqdimatlar edilib, müzakirələr aparılıb.

DIRNA layihəsinin məqsədi hər kəsə əlçatan İnstitusional Repozitoriyalar (elektron arxivlər) Şəbəkəsinin yaradılmasına, tədqiqat nəticələrinin idarə edilməsində universitetlərin tədqiqat potensialının artırılmasına yönəldilib.

Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

Throughout the training, the University of Jyväskylä conducted presentations and discussions covering crucial topics such as university library practices, open scientific databases, and research data management. The goal of the DIRNA project is to establish a Network of Institutional Repositories (electronic archives) accessible to all, thus enhancing universities' research capabilities in managing research outcomes.

Certificates were awarded to participants at the conclusion of the training

## TARİXÇİLƏRİN MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNƏ EKSKURSİYASI

## EXCURSION OF HISTORY STUDENTS TO NATIONAL MUSEUM OF AZERBAIJAN HISTORY



Aprelin 25-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin II kurs tələbələri Tarix və arxeologiya departamentinin müəllimi arxeoloq Orxan Zamanovun rəhbərliyi ilə Milli Azərbaycan Tarixi Muzeyinə tədris ekskursiyasında olublar. Muzey vaxtilə Azərbaycan milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin evi olub. Muzey ekspozisiyası tarixi binanın iki mərtəbəsində yerləşir.

Tələbələr üçün xüsusi ayrılmış bələdçi onları Azərbaycanda ən qədim zamanlardan müasir dövrümüzə qədər olan arxeoloji-tarixi eksponatlarla tanış edib, hər biri haqqında geniş məlumat verib. Xanlıqlar dövründən bəri Azərbaycanın azadlığı uğrunda aparılan mübarizələr, eyni zamanda mədəniyyət, milli geyimlər, neftin inkişafı haqqında məlumatlar tələbələr tərəfindən maraqla qarşılanıb.

On April 25, second-year students of the School of Humanities, Education and Social Sciences of Khazar University embarked on an educational excursion to the National Museum of Azerbaijan History under the guidance of archaeologist Orkhan Zamanov, a lecturer of the Department of History and Archeology.The museum was once the home of Azerbaijani millionaire and philanthropist Haji Zeynalabdin Taghiyev. The museum exposition covers two floors of the historical building. A specially designated guide for the students introduced them to archaeological and historical exhibits from the earliest times to the present day in Azerbaijan, and gave extensive information about the history of each of them. Information about the struggles for the freedom of Azerbaijan since the time of the khanates, as well as information about culture, national costumes, and the development of oil was received with interest by the students.





*Draqan Pamukar*

## “DAYANIQLI ENERJİDƏ QƏRAR QƏBULETMƏ YANAŞMALARI” MÖVZUSUNDA BEYNƏLXALQ SEMİNAR

Aprelin 24-də Xəzər Universitetinin İqtisadiyyat və menecment departamentinin təşkilatçılığı ilə “Davamlı enerjidə qərar qəbul etmə yanaşmaları” mövzusunda beynəlxalq seminar keçirildi.

İqtisadiyyat və menecment fakültəsinin dekanı Dos. Ceyhun Məmmədov giriş nitqi ilə çıxış edərək, seminarın Azərbaycan Respublikasının Prezidenti İlham əliyevin "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri" ilə bağlı sərəncamında göstərilən təmiz ətraf mühitin və yaşıl iqtisadiyyatın

## INTERNATIONAL WORKSHOP ON "DECISION-MAKING APPROACHES IN SUSTAINABLE ENERGY"

On April 24th, the Department of Economics and Management at Khazar University organized an International Workshop on "Decision-Making Approaches in Sustainable Energy".

Assoc. Prof. Dr. Jeyhun Mammadov, Dean of the School of Economics and Management, inaugurated the workshop and emphasized the alignment of its objective and importance with the national agenda for promoting a clean environment and green economy, as outlined in the Decree of the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev on "Azer-



*Hasan Dinçer*



*Əziz Nuriyev,*

təşviqi üzrə milli gündəliyin məqsəd və əhəmiyyətinə uyğunluğunu vurğuladı.

Tədris işləri üzrə prorektor Prof. Məhəmməd Nuriyev tədbir iştirakçılarını, tədqiqatçıları salamladı və müxtəlif sahələr üzrə tədqiqatlarda qeyri-səlis məntiq nəzəriyyəsinin tətbiqinin əhəmiyyətindən danışdı.

Seminarda iştirak edən görkəmli beynəlxalq tədqiqatçılar - İstanbul Medipol Universitetindən Prof. Dr. Serhat Yüksel və Prof. Dr. Hasan Dinçer, Belqrad Universitetindən Prof. Dr. Draqan Pamukar, Avropa Lefke Universitetindən Prof. Dr. Mustafa Tevfik Kartal və Azərbaycan Dövlət Neft və Sənaye Universitetindən Dr. Əziz Nuriyev öz tədqiqatları və onların nəticələri haqda məlumat verdilər .

İnteraktiv formada keçən tədbirdə suallar çavablandırıldı, müzakirələr aparıldı və bu da gələcək tədqiqat ideyalarının formalaşmasına təkan verdi.

baijan 2030: National Priorities for Socio-Economic Development".

Prof. Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs, greeted the participants and esteemed researchers and highlighted the importance of Fuzzy logic applications in research across various academic disciplines.

The workshop hosted distinguished international researchers - Prof. Dr. Serhat Yüksel and Prof. Dr. Hasan Dinçer from Istanbul Medipol University, Prof. Dr. Dragan Pamucar from the University of Belgrade, Assoc. Prof. Dr. Mustafa Tevfik Kartal from the European University of Lefke, and Dr. Aziz Nuriyev from Azerbaijan State Oil and Industry University - who presented their latest findings and insights.

The event fostered high interactivity through questions and discussions, which led to the cultivation of future research ideas.

# ŞAGİRDLƏRİN İŞTİRAKI İLƏ EKOLOJİ TƏDBİR

Aprelin 27-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında fəaliyyət göstərən Sumqayıt şəhəri üzrə Uşaq Səfirlər Məclisinin təşkilatçılığı ilə 43 nömrəli tam orta məktəbdə ekoloji tədbir keçirilib. Tədbirdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin əməkdaşı Aynur Eyvazova, Ümumdünya Təbiəti Mühafizə Fondu Azərbaycan nümayəndəliyinin direktoru Elşad Əsgərov, Xəzər Universiteti Ekoloji Tədqiqat Mərkəzinin direktoru Rövşən Abbasov və digər qonaqlar iştirak ediblər.

Görüşdə könüllü gənc ekoloqlar "Ekoloji problemlər", "Litosferin çirklənməsi və radioaktiv tullantılar", "İstixana effekti", "Hidrosferin çirklənməsi", "Meşələrin qorunması", "Zərərli vərdişlər", "Sağlam qidalanma", "Plastik tullantıların zərərləri", "Təmizlik və suyun faydaları" mövzularında hazırlanan təqdimatlarla çıxış ediblər.

Tədbir gənclərin ekoloji problemlərə daha məsuliyyətli yanaşmasını təşviq etmək və onları bu istiqamətdə maarifləndirmək məqsədi daşıyır. İştirakçılar ekoloji biliklərinin artırılması və praktiki təcrübələrinin genişləndirilməsi üçün bu cür görüşlərin əhəmiyyətini vurğulayıblar.

# ENVIRONMENTAL INITIATIVE WITH THE PARTICIPATION OF STUDENTS

On April 27, an environmental event was held at secondary school No. 43 under the organization of the Assembly of Children's Ambassadors for the city of Sumgait, which operates under the State Committee for Family, Women and Children's Problems. The event was attended by Aynur Eyvazova, an employee of the Sumgayit City Executive Authority, Elshad Askerov, the director of the Azerbaijan representative office of the World Wide Fund for Nature, Rovshan Abbasov, the director of the Khazar University Ecological Research Center, and other guests.

Young volunteer ecologists delivered presentations on a range of topics including "Environmental problems", "Pollution of the lithosphere and radioactive waste", "Greenhouse effect", "Pollution of the hydrosphere", "Protection of forests", "Harmful habits", "Healthy nutrition", "Harms of plastic waste", "Cleanliness and benefits of water".

The event's objective is to instill a sense of responsibility towards environmental issues among the young and provide educational guidance in this regard. Attendees underscored the significance of such gatherings in enhancing environmental awareness and broadening practical expertise.

*https://sumqayitxeber.com/sagirdlerin-istiraki-ile-ekoloji-tedbir-kecirilib/*

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ "ABDAL ATA" SİMPOZİUMUNDA

## LECTURER OF THE DEPARTMENT OF HISTORY AND ARCHEOLOGY AT "ABDAL ATA" SYMPOSIUM




Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Dr. Nurlan Nəsirov 2024-cü il aprelin 26-27-də Türkiyənin Hitit Universiteti tərəfindən təşkil olunmuş II Uluslararası "Türküstandan Anadoluya İrfan Geleneği: "Abdal Ata" simpoziumunda "XIII-XV əsrlərdə Azərbaycanda yaşamış sufi şeyxlərin dövlət idarəçiliyinə təsirlərinə dair bəzi dəyərləndirmələr" adlı tezislə çıxış edib.

On April 26-27, Nurlan Nasirov, a lecturer of the Department of History and Archeology of Khazar University, delivered a thesis entitled "Analyzing the Impact of Sufi Sheikhs Residing in Azerbaijan from the 13th to 15th Centuries on State Governance" at the II International Symposium "The Wisdom Tradition from Turkestan to Anatolia: Abdal Ata"organized by Hittite University of Türkiye.

## "KPMG AZERBAIJAN" ŞİRKƏTİNİN AUDİT KARYERA GÜNÜ KEÇİRİLİB

Aprelin 29-da Xəzər Universiteti Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə İqtisadiyyat və menecment fakültəsinin maliyyə, mühasibat və audit ixtisasları üzrə təhsil alan 3-cü və 4-cü kurs tələbələrinin karyera inkişafına dəstək olmaq və onlara iş imkanları yaratmaq məqsədilə "KPMG Azerbaijan" şirkətinin Audit Karyera günü keçirildi.

Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva şirkətin əməkdaşlarını tələbələrə təqdim etdi.

## AUDIT CAREER DAY OF "KPMG AZERBAIJAN" COMPANY HELD

On April 29, Khazar University Career and Alumni Center organized the Audit career day of " KPMG Azerbaijan" company to support the career development of 3rd and 4th year students studying finance, accounting and audit specialties of the School of Economics and management and to create job opportunities for them.

Director of the Career and Alumni Center, Zarifa Aliyeva, opened the meeting and introducing "KPMG



Şirkətin audit direktoru, Xəzər Universitetinin məzunu Mələk Abbaslı KPMG şirkətinin fəaliyyəti haqqında ətraflı məlumat verdi. O, təqdimatında "KPMG Azerbaijan" şirkətinin dünyanın ən böyük peşəkar xidmətlər şəbəkələrindən biri olduğunu, əsasən audit, vergi və konsaltinq üzrə xidmət göstərdiyini qeyd etdi. Sonra şirkətin audit üzrə köməkçi meneceri Ramin Əmiraslanov "KPMG Azerbaijan" şirkətində iş tapmaq imkanları və hazırda mövcud olan vakansiyalar barədə məlumat verdi. Şirkətin əməkdaşları tələbələri maraqlandıran sualları da cavablandırdılar.

Tədbirin yekununda "KPMG Azerbaijan"-ın potensial işçisi olmaq istəyən tələbələr üçün şirkətin əməkdaşları imtahan keçirdi. İmtahanı müvəffəqiyyətlə verən tələbələr şirkət tərəfindən işlə təmin olunacaqlar.

Azerbaijan" representatives to the students. Audit director of the company, graduate of Khazar University, Melak Abbasli, gave detailed information about the activities of KPMG. In her presentation, she noted that KPMG Azerbaijan is one of the world's largest professional services networks, mainly providing audit, tax and consulting services. Later, the company's assistant audit manager Ramin Amiraslanov outlined job opportunities and current vacancies within the company. Then the company's employees answered the students' questions.

Following presentations, company staff answered students' questions, culminating in an exam for prospective "KPMG Azerbaijan" employees. Students who successfully pass the exam will be provided with a job by the company.








## AZƏRBAYCAN MİLLİ EKOSİSTEM QİYMƏTLƏNDİRMƏSİNİN SİYASƏTÇİLƏR ÜÇÜN İCMALI

Xəzər Universiteti Ekoloji Tədqiqat Mərkəzinin direktoru Rövşən Abbasovun aparıcı müəllifi olduğu "Azərbaycan Milli Ekosistem Qiymətləndirməsinin Siyasətçilər üçün İcmalı (Summary for Policymakers)" çap olunub.

SPM böyük bir texniki qiymətləndirmənin qısa icmalıdır və daha çox siyasətçilər üçün nəzərdə tutulur.

Bir dövlət sənədi olaraq SPM-da təqdim olunan tapıntılar yaxın 20 ildə Azərbaycanda həyata keçiriləcək sosial-iqtisadi inkişafa aid olan bütün məsələlərdə əsas sənəd sayılacaq.

Bu sənəddən eləcə də tədqiqatçılar, doktorant tələbələr, yerli bələdiyyə orqanları, tədris mütəxəssisləri və geniş oxucu kütləsi bəhrələnə bilər.

## SUMMARY OF THE AZERBAIJAN NATIONAL ECOSYSTEM ASSESSMENT FOR POLICYMAKERS

The "Summary for Policymakers of the National Ecosystem Assessment of Azerbaijan" written by Rovshan Abbasov, director of the Khazar University Ecological Research Center, was published. The SPM is a short overview of a large technical assessment and is intended mostly for policy makers.

As a state document, the findings presented in the SPM will be considered the main document in all issues related to the socio-economic development that will be implemented in Azerbaijan in the next 20 years.

This document can also be used by researchers, doctoral students, local municipal authorities, teaching professionals and the general public.

*https://www.ecosystemassessments.net/resource/azerbaijan-nea-summary-for-policymakers/*
*https://www.ecosystemassessments.net/resource/azerbaijan-nea-infographics/*
*https://www.ecosystemassessments.net/resource-list/*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN DƏRS VƏSAİTİ ÇAP OLUNUB

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin "Azərbaycan millətşünaslığına giriş" adlı dərs vəsaiti Xəzər Universitetinin 29 fevral 2024-cü il tarixli Elmi Şurasının qərarı ilə universitetin nəşriyyatı tərəfindən nəşr edilib. Dərs vəsaiti ali məktəb tələbələri və tədqiqatçılar üçün nəzərdə tutulub.

Dərs vəsaiti bu mövzuda nəşr edilmiş ilk kitabdır.

## POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT HEAD RELEASES TEXTBOOK

The textbook of "Introduction to Azerbaijani National Studies" by Dr. Orkhan Valiyev, the head of the Department of Political Sciences and Philosophy, was published by the publishing house of the university by the decision of the meeting of the Scientific Council of Khazar University on February 29, 2024 No. 3/23-24. The textbook is tailored for university students and researchers.

The textbook marks the first publication on this topic.




Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

# Mədəniyyət Dünyası

Elmi-nəzəri jurnal

## PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞININ MƏQALƏSİ "MƏDƏNİYYƏT DÜNYASI" JURNALINDA

## ARTICLE OF THE PSYCHOLOGY DEPARTMENT EMPLOYEE IN "WORLD OF CULTURE" JOURNAL

Xəzər Universiteti Psixologiya Departamentinin koordinatoru Mələk Kərimovanın "Musiqi terapiyasının psixi rifahımızda rolu" adlı məqaləsi Ali Attestasiya Komissiyasının jurnalları siyahısında yer alan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin XXXXIV saylı "Mədəniyyət Dünyası" jurnalında çap edilib. Məqalədə musiqi terapiyasının tarixi keçmişi tədqiq edilmiş, musiqi terapiyasının alt sahələri, musiqinin beyin yarımkürələrinə təsiri mexanizmləri, depressiyadan azad olma, stresslə mübarizədəki rolu və psixi rifahın qorunmasında əhəmiyyəti üzərində dayanılmışdır.

Khazar University Psychology Department coordinator Malak Karimova's article entitled "The role of music therapy in our mental well-being" was published in "Culture World" journal No. XXXXIV of Azerbaijan State University of Culture and Arts, which is included in the list of journals of the Higher Attestation Commission. In the article, the historical background of music therapy was studied, the subfields of music therapy, the mechanisms of the effect of music on the cerebral hemispheres, relief from depression, its role in combating stress and its importance in maintaining mental well-being were emphasized.




## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ "VLADİKAVKAZ MATHEMATICAL JOURNAL" JURNALINDA

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "Existence theorem for a fractal Sturm-Liouville problem" ("Fraktal Şturm-Liuvill məsələsi üçün mövcudluq teoremi") adlı birinci müəllifi olduğu məqalə "Vladikavkaz Mathematical Journal" (2024, Cild 26, № 1) jurnalında dərc olunub. Qeyd edək ki, "Vladikavkaz Mathematical Journal" jurnalı "Scopus" bazasında indekslənib.

Məqalədə həqiqi ədədlər çoxluğunun fraktal alt çoxluqları üzərində təyin edilmiş yeni hesablamadan istifadə etməklə Şturm-Liuvill tipli məsələ, yəni fraktal Şturm-Liuvill məsələsi tədqiq edilir. Bu tənliklər üçün mövcudluq və yeganəlik teoremi isbat olunur.

## ARTICLE OF THE PROFESSOR OF MATHEMATICS DEPARTMENT IN "VLADIKAVKAZ MATHEMATICAL JOURNAL"

The article " Existence theorem for a fractal Sturm-Liouville problem " the first author of which is Bilander Allahverdiyev, professor of the Mathematics Department of Khazar University, was published in "Vladikavkaz Mathematical Journal" (2024, Vol. 26, No. 1). Note that "Vladikavkaz Mathematical Journal" is indexed in "Scopus" database

In this article, using a new calculus defined on fractal subsets of the set of real numbers, a Sturm-Lioville type problem is discussed, namely the fractal Sturm-Liouville problem. The existence and uniqueness theorem has been proved for such equations.

*https://www.vmj.ru/eng/current/detail.php?ELEMENT_ID=14181&SECTION_ID=584*
*https://www.vmj.ru/*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMLƏRİNİN BİRGƏ MƏQALƏSİ "UNIVERSAL JOURNAL OF HISTORY AND CULTURE" JURNALINDA




Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin doktorantı, müəllim Rahil Dadaşlının və departamentin müdiri Dr. Orxan Vəliyevin "Debating on Transport Corridors of Azerbaijan in the Context of Globalization" ("Qloballaşma kontekstində Azərbaycanın nəqliyyat dəhlizlərinin müzakirəsi") adlı birgə məqaləsi "Universal Journal of History and Culture" jurnalında (2024, Cild 6, №1) dərc edilib.

Jurnal nüfuzlu ERIH PLUS (Humanitar elmlər üçün Avropa Referans İndeksi) siyahısına daxildir.

Məqalədə Azərbaycanın nəqliyyat imkanları və onun qlobal ticarətdəki əhəmiyyəti araşdırılır.

## POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT LECTURERS' JOINT ARTICLE IN "UNIVERSAL JOURNAL OF HISTORY AND CULTURE"

The publication titled "Debating on Transport Corridors of Azerbaijan in the Context of Globalization," jointly authored by Rahil Dadashli, a lecturer and a Ph.D. student in Political Sciences and Dr. Orkhan Valiyev, who leads the Department of Political Science and Philosophy at Khazar University, has been featured in the Universal Journal of History and Culture (Volume 6, Issue 1, 2024).

This article explores Azerbaijan's transportation capabilities and its significance in global trade. Notably, the journal is included in the prestigious ERIH PLUS (European Reference Index for the Humanities) and is published biannually in Turkiye, accessible through DergiPark.

*https://dergipark.org.tr/en/pub/ujhc/issue/84208/1411712*

# TƏHSİL EKSPERTİ XƏZƏR UNİVERSİTETİ HAQQINDA

# INSIGHTS FROM AN EDUCATION EXPERT ON KHAZAR UNIVERSITY

TED.az saytının 15 aprel 2024-cü il tarixli sayında təhsil eksperti Ramin Nurəliyevin "Azərbaycanda yeni ali təhsil müəssisələrinin açılması əcnəbi tələbələr üçün böyük imkanlar yaradır" adlı məqaləsi dərc olunmuşdur. Məqalədə Xəzər Universitetində tədrisin beynəlxalq standartlara uyğun ingilis dilində aparılmasından və ikili diplom proqramları sahəsində fəaliyyətindən də bəhs edilir.

An article titled "New opportunities for international students with the establishment of new higher education institutions in Azerbaijan," authored by education specialist Ramin Nuraliyev, was publised on the TED.az website's April 15, 2024 release. The article highlights Khazar University's adoption of English as the language of instruction, aligned with international standards, and its activities the field of dual diploma programs.

***https://ted.az/az/view/news/58088/azerbaycanda-yeni-ali-tehsil-muessiselerinin-achilmasi-ecnebi-telebeler-uchun-boyuk-imkanlar-yaradir-ndash-rey***

# HACETTEPE UNİVERSİTETİ PROFESSORUNUN MODUL DƏRSLƏRİNDƏ XƏZƏR UNİVERSİTETİNİN MAGİSTRLƏRİ DƏ İŞTİRAK EDİB

# KHAZAR UNIVERSITY MASTER STUDENTS ENGAGE IN MODULE CLASSES LED BY HACETTEPE UNIVERSITY PROFESSOR

Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "SABAH" qruplarının təşkilatçılığı ilə Hacettepe Universitetinin professoru Səlahəddin Gelbal "Təhsildə ölçmə, qiymətləndirmə və elmi tədqiqatda data analizi" mövzusunda modul dərsin tədrisini başa çatdırıb. Dərslərdə ADPU, ADA Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Xəzər Universitetinin müvafiq ixtisaslarında təhsil alan 80 nəfərdən çox magistrantı iştirak edib.

Professor Salahaddin Gelbal completed module training on "Measurement in education, evaluation, and data analysis in educational research" in collaboration with the "SABAH" student groups of Azerbaijan State Pedagogical University. Over 80 postgraduate students from specific majors at ASPU, ADA University, Azerbaijan State Culture and Art, and Khazar University  have actively participated in these sessions.

***https://azertag.az/xeber/hacettepe_universitetinin_professoru_adpu_da_magistrantlar_uchun_modul_dersler_kechir-2970745***

# TÜLKÜ VƏ QARĞA

*(novella)*

Bir gün meşəyə səs yayılır ki, qarğanın səsi tutulub, daha o, qarıldaya bilmir. Hətta quşlar, vəhşi heyvanlar arasında qarğaya mahnı, lətifə qoşanlar da olur. Və bu söhbət qarğanın qanına hamıdan çox yerikləyən tülküyə də çatır. Tülkü vaxtı əldən verməyib cumur qarğaların ən çox toplaşdığı yerə və ala qarğanı soraqlayır. Ala qarğa tülkünü görcək,-yəqin yenə hansısa bir tələ qurub,- deyə düşünərək, gəlir tülkünün hüzuruna. Tülkü onu istehza ilə salamlayaraq deyir:

- Ay ala qarğa, bütün meşədə hamı sənin səsinin batdığından danışır. Deyirlər daha səsin çıxmır, qarıldaya bilmirsən. Düzdürmü bu deyilənlər?



Tülkünün əlindən bezən qarğa bilir ki, o, nəsə bir fənd düşünüb. Odur ki, tülküyə belə cavab verir:

- Sabah oturduğum bu ağacın altına gəl, mən bu şayiənin düz olub-olmadığını sənə deyəcəyəm. İstəsən sənə yenə pendir gətirərəm və o, ağzımda ikən bərkdən qarıldayaram.

Pendir sözünü eşitcək tülkünün ağzı sulandı, - əlbəttə, gətir, mən də bunun müqabilində bütün vəhşi heyvanlara xəbər yayaram ki, qarğanın səsinin tutulması sadəcə bir şayiədir.

...Qarğa uçub gözdən itir, gedir bir ovçu dostunun yanına və başına gələnləri ona danışır. Dostlar qərara alırlar ki, meşədə kəsilən ağaclardan pendirə bənzəyən bir hissəni qarğa ağzına alıb getsin tülkünün görüşünə, həmin ağacın altında isə ovçu qabaqcadan tülkünü tutmaq üçün cələ qursun. Qarğa ağzını açıb pendirə oxşayan ağac parçasını tülkünün üstünə tullasın, tülkünün başı yalançı pendirə qarışsın və bu zaman ağacda, budaqlar arasında gizlənən ovçu cələni yuxarı qaldırıb tülkünü tutsun.Bu da olsun tülkünün hiyləsinə cavab tədbiri.

...Sövdələşdikləri vaxt qarğa da, tülkü də olurlar həmin ağacın biri altında, o birisisə üstündə. Qarğa ağzındakı pendirəbənzər odun qırığını tülküyə göstərir, tülkünün ağzı sulanır. Ancaq özünü yerə vurmur, deyir ki, əvvəlcə sən qarılda, mən bu şayiənin yalan olduğuna inanım, sonra isə pendiri atarsan mənə. Qarğa qəsdən var gücü ilə bərkdən qarıldamağa başlayır. Bu zaman ağac qırığı qarğanın ağzından

sürüşüb düşür düz tülkünün qənşərinə.Tülkü ağzını marçıldada-marçıldada cumur sevimli yeməyin üstünə və başı qarışır taxta parçasını ağzında sağ cəngindən, sol cənginə, sol cəngindən sağ cənginə keçirməyə. Tülkünün cələnin düz ortasında olduğunu görən ovçi məqamı əldən verməyərək, ipi dartmağa başlayır, tülkünün ayaqları yerdən üzülür və cələnin ağzı bağlanır. Tülkü nə qədər çabalasa da, xeyri olmur və ovçu çoxdan arzuladığı ovu rahatlıqla əldə edir və onu boğaza yığan tülküdən belə qisas alır. Cələdə taqətsiz halda çabalayan tülkü həyatını bir parça pendirə qurban verdiyini nəhayət ki dərk edir və qarğaya deyir:

- Bu dəfə sən tülkü kimi hiyləgər, mənsə qarğa kimi kütbaş oldum.




Özündən razı halda budaqdan-budağa tüllanan qarğa tülküyə belə cavab verdi:

- Bəs nə bilmişdin?! Krilovun yazdığı "Tülkü və qarğa" təmsilində sən məni aldadıb pendirimi əlimdən alıb yemisən. Əvvəl-axır qusmalı deyildinmi oğurluq yediklərini?! A yazıq, o nağıl qaldı daha keçmişdə, Krilovun dövründə. Sağ olsun yazarımız Valeh Mirzə. O, bu novellada səni yox, məni qalib etdi, daha bundan sonra sənin yox, hamı mənim nağılımı oxuyacaq, görəcəklər necə son qoydum sənin tülkülüyünə!

# RÜŞVƏTİ NƏ ALANDA, NƏ DƏ VERƏNDƏ GECİKDİRMƏK OLMAZ!

*(novella)*

Rüşvətin ən çox tüğyan elədiyi bir baş idarədə növbəti iclas keçirilir.Gündəlikdə duran məsələ isə "Rüşvətxorluğa və korrupsiya hallarına qarşı mübarizə " mövzusu olur. Əsas məruzəçi elan olunanda hamı ayağa qalxıb onu sürəkli alqışlara qərq edir. Çünki əsas məruzəçi elə baş idarə rəisinin özü olur. Rəis öz çıxışında sağdan vurub, soldan çıxır, soldan vurub sağdan çıxır, demək olar ki, iclasdakıların hamısını yıxıb-sürüyür və çıxışının sonunda belə hallara qarşı mübarizədə amansız olacağını bəyan edir.

Televiziya əməkdaşları əsas məruzəçinin maraqlı çıxışını lentə alıb iclası tərk edirlər. İclas başa çatır və hamı öz iş otağına qayıdır təkcə idarədə nizam-intizama nəzarətçi olan Molla Xəzərdən savayı.O, kefi kök halda kabinetinə tələsən idarə rəisinə yaxınlaşaraq, yarızarafat halda soruşur:

- Rəis, nə yaxşı canımızı qurtardınız bu qorxunc bəladan.

Molla Xəzəri kinayə ilə süzən rəisin bayaqdan gülümsəyən bənizi birdən-birə badımcan rəngi alır.

-A kişi, sən nə dilbilməzsən?- deyir. - Adını da Molla Xəzər qoymusan, ancaq bilmirsən ki, rüşvət alıb-vermək bəla deyil. Əsl bəla sizinkimilərin dilbilməzliyidir, molla! Nəzarəti gücləndir işçilərin üzərində! Rüşvəti nə alanda, nə də verəndə gecikdirmək olmaz!

# "SİZ ANCAQ İSAXANŞÜNAS OLA BİLƏRSİNİZ"

Bu günlərdə Xəzər Universitetinin prorektoru, filologiya elmləri doktoru, yeseninşünas İsaxan İsaxanlının böyük rus şairi Serqey Yeseninin həyat və yaradıcılığına həsr etdiyi növbəti tədqiqat xarakterli "Незадаром ему мигнули очи» kitabını oxudum və etiraf etməliyəm ki, çox da xoşuma gəldi. Nəfis şəkildə nəşr olunan kitabda tanınmış rus şairinin bədii yaradıcılığı müəllif tərəfindən dərin və məzmunlu təhlil edilmişdi. Mən İsaxan müəllimə ərsəyə gətirdiyi bu fundamental kitab barədə ürək sözlərimi ifadə etmək üçün məqam axtararkən,










təsadüfən, bir məclisdə onunla yanaşı oturası oldum. Şübhəsiz, mən rus dili mütəxəssisi, rus ədəbiyyatından çox bəhrələnən, onların bəzilərini, elə Yeseninin özünün də bir neçə şeirini tərcümə edən bir mütəxəssis olaraq, müəllifin bu kitabını yüksək dəyərləndirdiyimi dilə gətirdim və onu təbrik etdim.

İsaxan müəllim də öz növbəsində kitaba verdiyim dəyərə görə mənə təşəkkürünü bildirdi və gülümsünərək dedi:

- Bir alim dostum da məni bu günlərdə təbrik etdi və söylədi ki, sənin kitablarını o qədər oxumuşam, deyəsən, axırda özüm də yeseninşünas olacağam. Mənsə ona söylədim ki, dostum, bu mümkün deyil, siz yeseninşünas ola bilməzsiniz, olsa-olsa, ancaq isaxanşünas ola bilərsiniz...



# SİZİN DƏ QOYUNLARINIZ SAĞ-SALAMAT QALIR, MƏNİMKİLƏR DƏ

Məntiq imtahanında tələbənin bilet suallarını cavablandıra bilmədiyini görən imtahan komissiyasının sədri Molla Xəzər bir jest edir. Deyir ki, sənə məntiqdən asan bir sual verəcəyəm, cavabını tapsan, qiymət alacaqsan. Tapmasan, canavardan küsərsən.

Canavar sözünü eşidəndə tələbə çaş-baş qalır və dili topuq vura - vura deyir:

-Niyə çanavardan?

İndi biləcəksən,- deyə, Molla Xəzər sualını səsləndirir:

-De görüm, bir canavarı və iki qoyunu çayın bir tərəfindən o biri tərəfinə qayıqla necə keçirməlisən ki, canavar qoyunlara xətər yetirə bilməsin. Nəzərə al ki, qayıq səninlə birlikdə üç nəfərdən artıq götürə bilməz.





Tələbə fikrə gedir və haçandan-haçana,-tapdım!-deyə, sevincək halda dillənir:

-Əvvəlcə canavarı çayın o tərəfinə keçirərəm. Sonra qayıdıb qoyunları keçirərəm və canavarı özümlə geri qaytararam. Lap axırda isə canavarı yenidən özümlə qoyunların yanına qaytararam. Məncə belə etsəm, qoyunlar sağ-salamat qalar.



Tələbəni diqqətlə dinləyən Molla Xəzər gülümsünərək deyir:

-Zənnimcə, əvvəlcə qoyunları çayın o tərəfinə keçirmək pis olmazdı, sonra isə qayıdıb canavarı aparmaq olardı.

Molla Xəzərin onunla məzələndiyini görən tələbə özünü itirmədən ona belə cavab verir:

-Fərqi nədir, keçəl Həsən, ya Həsən keçəl? Əsas odur ki, sizin də qoyunlarınız sağ-salamat qalır, mənimkilər də.

**Valeh Mirzə**




# XƏZƏR UNİVERSİTETİNİN "AZƏRBAYCAN ARXEOLOGİYASI" JURNALININ BAŞ REDAKTORU, PROFESSOR QÜDRƏT İSMAYILZADƏ VƏFAT EDİB

Xəzər Universitetinin "Azərbaycan Arxeologiyası" jurnalının baş redaktoru, BDU-nun Tarix fakültəsinin məsləhətçi professoru, tarix elmləri doktoru Qüdrət İsmayılzadə 2024-cü il aprelin 1-də vəfat edib.

Qüdrət Seyfulla oğlu İsmayılzadə 1934-cü ildə Bakıda anadan olmuşdur. 1952–1957-ci illərdə Azərbaycan Dövlət Universiteti (indiki BDU) Tarix fakültəsinin tələbəsi, 1960-1963-cü illərdə Azərbaycan Elmlər Akademiyasının aspirantı olmuşdur. 1964-cü ildə namizədlik, 1983-cü ildə elmlər doktorluğu dissertasiyası müdafiə etmişdir.

Əmək fəaliyyətinə müəllim kimi başlamış, 1957-1958-ci illərdə Azərbaycan SSR-in Yardımlı rayonunda tarix və rus dili müəllimi işləmişdir. 1958-1977-ci illərdə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun Arxeologiya və Etnoqrafiya sektorunun əməkdaşı olmuşdur; ömrünün sonunadək Arxeologiya və Etnoqrafiya İnstitutu ilə əməkdaşlıq etmişdir.

1977-ci ildən Azərbaycan Dövlət Universitetində Ümumi tarix, Qədim dünya və orta əsrlər tarixi və Arxeologiya və ttnoqrafiya kafedralarında çalışmış, bir müddət Arxeologiya və etnoqrafiya kafedrasının müdiri olmuşdur.

1989-1990-cı illərdə AFR-də Azərbaycanın maddi mədəniyyəti haqqında mühazirələr oxumuşdur. Troya, Boğazköy və Altıntəpə kimi dünya əhəmiyyətli abidələrdə arxeoloji qazıntılarda iştirak etmişdir. 200-dən artıq elmi məqalə və 3 elmi monoqrafiyanın, 2 elmi-populyar kitabın, 1 dərs vəsaitinin müəllifidir. Beynəlxalq Arxeoloqlar Assosiasiyasının üzvü, Türkmənistan prezidenti yanında Şərqin mədəni irsinin öyrənilməsi üzrə Elmi Şuranın və Rusiya Arxeoloqlar Cəmiyyətinin Azərbaycan bürosunun üzvü, "Miras" jurnalının beynəlxalq redaksiya şurasının üzvü, "Azərbaycan Arxeologiyası" jurnalının təsis edildiy gündın baş redaktoru olmuşdur. O, uzun illər Xəzər Universitetində müəllim kimi də fəaliyyət göstərib.

Qüdrət İsmayılzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2019-cu ildə Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunub.

Qüdrət İsmayılzadəyə Allahdan rəhmət, ailəsinə və yaxınlarına səbr diləyirik.

**Xəzər Universitetinin kollektivi**

# ƏSL MÜƏLLİM VƏ BÖYÜK ZİYALI PROFESSOR QÜDRƏT İSMAYILZADƏ HAQQINDA BİR NEÇƏ SÖZ



1973-cü ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin birinci kursunun tələbəsi olduq. Sentyabrın birinci həftəsinin dərslərini – Azərbaycan tarixindən Dos. Şamil Məmmədbəyli, arxeologiyadan Prof. Məmmədəli Hüseynov, etnoqrafiyadan Prof. Həvil Həvilov, qədim dünya tarixindən Prof. Qüdrət İsmayılzadə keçdilər. (Allah onların hamısını rəhmət eləsin). Şamil müəllim nisbətən yaşlı, eyni zamanda təcrübəli və qayğıkeş bir müəllim idi. Məmmədəli müəllim ilk nəzərdən sərt görünürdü, amma bu sərtlik aldadıcı idi, səmimiyyəti daha çox idi. Həvil müəllim imtahanda çox ədalətli idi.

Qüdrət müəllim tarix fakültəsinə yenicə gəlmişdi. Qədim dünyadan dərsliklər rus dilində idi. Qüdrət müəllim mühazirələrini kənddən gələn uşaqların arzu və istəklərinə uyğun qururdu. Yəni mühazirəni aramla deyirdi ki, hamı yaza bilsin. Dilində kobud ifadə yox idi, səbrli idi, özündən çıxan deyildi, geyiminə fikir verən idi, tələbələrlə səmimi münasibət qurmağı sevərdi, tapılmayan kitabları evindən gətirirdi. Bir sözlə, Qüdrət müəllim haqqında ancaq xoş sözlər demək olar. Tələbə ilə prinsipi olmazdı, çətinliyə düşən tələbə Qüdrət müəllimə yaxınlaşıb ondan kömək istəyə bilərdi. İmtahanda, demək olar ki, heç kimə qeyri-kafi yazmırdı, desəm, doğru olar. Ümumiyyətlə ürəyi təmiz, xətrə dəyməyən, tələbə dostları olan nadir müəllimlərdən idi.

…Qədim dünyadan götürdüyüm kurs işi Spartakın başçılığı altında qullar üsyanına həsr olunmuşdu. Tanımaza-bilməzə kurs işi ilə bağlı bütün kitabları mənə verdi. İllər keçəndən sonra başa düşdüm ki, belə xeyirxahlığı hamı etmir, çünki müəllimin borcu tələbəyə kitab daşımaq deyil. Sonralar uzun illər Qüdrət müəllimlə universitetdə həmkar olduq, çiyin-çiyinə çalışdıq, onun böyüklüyünə qibtə etdim.

Qüdrət müəllim kafedra müdirliyindən könüllü istefa verdi. Bu hadisə bu günə kimi rast gəldiyim nadir hallardan biridir.

Prof. Qüdrət İsmayılov bütün qanı və canı ilə azərbaycanlı idi, əsl müəllim və böyük ziyalı idi.

Qüdrət müəllim 1934-cü ildə Bakıda doğulmuşdu, ancaq bütün arxeoloji tədqiqatları Qarabağla bağlı idi. Ən sevdiyi rayon Füzuli idi, çünki arxeoloq kimi bu rayondakı tapıntılar ona şöhrət gətirmişdi. İnsafən Füzuli camaatı da Qüdrət müəllimi çox istəyirdi, onu Füzulidən olan ziyalı kimi qəbul edirdilər. Qarabağ, o cümlədən Füzuli işğaldan azad ediləndə ən çox sevinənlərdən biri Qüdrət müəllim oldu.

Qüdrət müəllimin gözəl qələmi var idi. Yazdıqları ona böyük alim şöhrəti gətirdi.

Bu gün Qüdrət müəllim haqq dünyasına qovuşdu, aramızdan ayrıldı, amma onu tanıyanların xatirəsində unudulmaz bir iz qoydu. Müəllimə böyük nüfuz qazandıran ƏDALƏT, ƏXLAQ və NƏFSİN TOXLUĞU-dur. Qüdrət müəllim müəllim olaraq bu üç prinsipi bizə əmanət qoydu.

Ruhunuz şad olsun, əziz müəllimim!

**Anar İsgəndərov**
*Millət vəkili, tarix elmləri doktoru, professor*

***https://medianews.az/2024/04/02/%C9%99sl-mu%C9%99llim-v%C9%99-boyuk-ziyali-professor-qudr%C9%99t-ismayilzad%C9%99-haqqinda-bir-nec%C9%99-soz***




# BAKI DÜNYANIN "İDMAN PAYTAXTI" SEÇİLDİ

Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Bakını 2026-cı il üçün dünyanın "İdman paytaxtı" seçib.

Beynəlxalq təşkilatdan Azərbaycana göndərilmiş rəsmi məktubda Bakı şəhərinin namizədliyinin təsdiqləndiyi bildirilib.

Azərbaycanda əhalinin sağlamlığının möhkəmləndirilməsi, yüksək standartlara uyğun mövcud idman infrastrukturu və idmanın təbliği üçün görülən nümunəvi fəaliyyət yüksək qiymətləndirilib.

Qeyd edək ki, gələn ilin sonunda Belçikanın Brüssel şəhərində, Avropa Parlamentində Bakı şəhərinin dünyanın "İdman Paytaxtı" olaraq rəsmi təqdimat mərasiminin keçirilməsi planlaşdırılır.

*https://www.cbcsport.az/news/video/7085.html*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi universitetin Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovaya anası

**Adilə Mirzəyevanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi
- Musiqi müəllimliyi